AZƏRBAYCANIN BÜTÖVLÜYÜ, MÜSTƏQİLLİYİ VƏ TƏRƏQQİSİ

# RESPUBLİKA

TƏSİSÇİ: AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN İŞLƏR İDARƏSİ VƏ QƏZETİN REDAKSİYA HEYƏTİ

18 MAY 2019-cu il ŞƏNBƏ № 108 (6435) GÜNDƏLİK İCTİMAİ-SİYASİ, SOSİAL-İQTİSADİ QƏZET WWW.RESPUBLICA-NEWS.AZ

## Prezident İlham Əliyev müsəlman ölkələrinin Azərbaycandakı səfirlərini və diplomatik nümayəndəliklərinin rəhbərlərini qəbul edib



*Mayın 17-də Prezident İlham Əliyev müqəddəs Ramazan ayı münasibətilə müsəlman ölkələrinin Azərbaycandakı səfirlərini və diplomatik nümayəndəliklərinin rəhbərlərini qəbul edib.*

*AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı görüşdə çıxış edib.*

### Prezident İlham Əliyevin çıxışı

– Hörmətli səfirlər.

Müqəddəs Ramazan ayında bizim görüşlərimiz ənənəvi xarakter daşıyır. İlk növbədə, xahiş edirəm ki, mənim səmimi salamlarımı, xoş arzularımı təmsil etdiyiniz ölkələrin dövlət və hökumət başçılarına çatdırasınız. Bildiyiniz kimi, müsəlman ölkələri ilə bizim çox sıx əməkdaşlığımız var. Siyasi sahədə fəal dialoq aparılır. Əlbəttə, çox istərdik ki, iqtisadi sahədə daha da fəal əməkdaşlıq olsun. Ticarət dövriyyəsinin artırılması, qarşılıqlı sərmayə qoyuluşu, digər sahələrdə birgə fəaliyyətimiz xalqlarımız üçün çox böyük əhəmiyyət kəsb edə bilər. Müsəlman ölkələrinin rəhbərləri ilə çoxsaylı görüşlərimdə bu məsələlər daim gündəlikdədir. Əlbəttə, biz çox istərdik ki, təmsil etdiyiniz ölkələrdən olan şirkətlər Azərbaycanda müxtəlif layihələrdə daha fəal iştirak etsinlər.

Bildiyiniz kimi, son vaxtlar Azərbaycanda turizmin inkişafı sürətlə gedir. Çox şadam ki, müsəlman ölkələrindən olan turistlər Azərbaycana gəlirlər və onların sayı ildən-ilə artır. Bir sözlə, ikitərəfli formatda əlaqələrimiz uğurla inkişaf edir. Bu əlaqələrin gələcək inkişafı üçün çox yaxşı şərait və imkanlar var.

Biz beynəlxalq təşkilatlar çərçivəsində də çox fəal əməkdaşlıq edirik, BMT-də, İslam Əməkdaşlıq Təşkilatında birbirimizə qarşılıqlı dəstək göstəririk. Bu qarşılıqlı dəstək bizim əlaqələrimizin yüksək səviyyədə olmasının təzahürüdür. Xüsusilə, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı müsəlman ölkələrinin dəstəyi bizim üçün çox əhəmiyyətlidir. Bildiyiniz kimi, Ermənistan Azərbaycanın ayrılmaz hissəsi olan Dağlıq Qarabağı və onun ətrafında yerləşən 7 rayonu uzun illərdir işğal altında saxlayır. Bu münaqişə və etnik təmizləmə siyasəti nəticəsində 1 milyondan artıq azərbaycanlı öz doğma torpağında qaçqın-köçkün vəziyyətinə düşmüşdür. Bu, beynəlxalq hüququn pozulmasıdır. Baxmayaraq, beynəlxalq təşkilatlar bu məsələ ilə bağlı müxtəlif qərar və qətnamələr qəbul etmişlər, əfsuslar olsun ki, işğalçı dövlətə lazımi təzyiqi göstərmirlər. BMT Təhlükəsizlik Şurası - dünyanın ali orqanı 4 qətnamə qəbul edib və bu qətnamələrdə göstərilir ki, işğalçı qüvvələr işğal edilmiş torpaqlardan qeydşərtsiz çıxarılmalıdır. Ancaq bu qətnamələr kağız üzərində qalıb və bu, ikili standartların təzahürüdür. Bütün dünya Azərbaycanın ərazi bütövlüyünü tanıyır. Dağlıq Qarabağ bizim tarixi torpağımızdır və Azərbaycanın ərazi bütövlüyü tam beynəlxalq dəstək alıbdır. Ancaq işğalçıya kifayət qədər təzyiq göstərilmir. Münaqişənin həlli ilə bağlı ölkəmizin mövqeyi birmənalıdır. Bu münaqişə ölkəmizin ərazi bütövlüyü çərçivəsində həll olunmalıdır. Beynəlxalq təşkilatlarda bizə göstərilən dəstəyə görə müsəlman ölkələrinə bir daha təşəkkürümü bildirirəm.

Azərbaycan da öz növbəsində, beynəlxalq təşkilatlarda müsəlman ölkələrini daim dəstəkləyir. Bildiyiniz kimi, biz İslam həmrəyliyinin gücləndirilməsinə çox böyük əhəmiyyət veririk və bu istiqamətdə əməli addımlar atılır. Azərbaycanda keçirilmiş çoxsaylı tədbirlər İslam həmrəyliyinin möhkəmlənməsinə xidmət göstərir. Biz hamımız yaxşı bilirik ki, İslam həmrəyliyinin möhkəmlənməsi gündəlikdə duran əsas məsələlərdən biridir. Azərbaycan öz tərəfindən bu istiqamətdə çox ciddi addımlar atır və atacaqdır.

Bildiyiniz kimi, eyni zamanda, ölkəmizdə mədəniyyətlərarası dialoqla bağlı çoxsaylı tədbirlər keçirilir. Bu yaxınlarda Bakıda keçirilmiş V Mədəniyyətlərarası Dialoq Forumu da bu sıradan olan tədbirlərdəndir. Onu da bildirməliyəm ki, Azərbaycan İslam mədəniyyətini dünyada təbliğ etməklə bağlı çox böyük səylər göstərir. Bir çox ölkələrdə konfranslar, sərgilər, təqdimatlar keçirilir və beləliklə, biz İslamı dünyaya sülh, mərhəmət dini kimi təqdim edirik.

Keçən il Naxçıvan - bizim qədim şəhərimiz İslam Mədəniyyətinin Paytaxtı elan edilmişdir. Bu qərara görə biz bütün müsəlman ölkələrinə minnətdarıq. Onu da qeyd etməliyəm ki, İslam Əməkdaşlıq Təşkilatı Azərbaycanın İslam həmrəyliyinin möhkəmlənməsində oynadığı rolu çox yüksək qiymətləndirir.

Mən bir daha sizi ürəkdən salamlayıram. Bir daha xahiş edirəm ki, mənim səmimi salamlarımı dövlət-hökumət başçılarına çatdırasınız. Təmsil etdiyiniz ölkələrin xalqlarına sülh, əmin-amanlıq və xoşbəxtlik arzulayıram.

* * *

**Sonra Fələstin Dövlətinin Azərbaycan Respublikasındakı səfiri Nasir Əbdül Kərim Əbdül RƏHİM çıxış edərək dedi:**

– Zati aliləri cənab Prezident.

Azərbaycan Respublikasında akkreditasiya olunmuş müsəlman ölkələrinin səfirləri və diplomatik missiyalarının rəhbərləri adından Sizi müqəddəs Ramazan ayı münasibətilə təbrik etmək mənim üçün böyük şərəfdir.



(davamı 2-ci səhifədə)

## Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ümumrusiya Bədii Gimnastika Federasiyasının prezidenti ilə görüşüblər



**Mayın 17-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ümumrusiya Bədii Gimnastika Federasiyasının prezidenti İrina Viner-Usmanova ilə görüşüblər.**

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında idman sahəsində əlaqələrin möhkəmləndirilməsində xidmətlərinə görə İrina Aleksandrovna Viner-Usmanova Prezident İlham Əliyevin Sərəncamına əsasən "Dostluq" ordeni ilə təltif edilib. Dövlətimizin başçısı ordeni İrina Viner-Usmanovaya təqdim etdi.

Prezident İlham Əliyev Ümumrusiya Bədii Gimnastika Federasiyasının prezidenti İrina Viner-Usmanovanı Azərbaycanın yüksək mükafatlarından olan "Dostluq" ordeni ilə təltif olunması münasibətilə təbrik etdi və onun ölkələrimiz arasında idman və ümumilikdə dostluq əlaqələrinin inkişafındakı rolunu xüsusi vurğuladı.

(davamı 2-ci səhifədə)



## S.N.Cabbarovun Sabirabad Rayon İcra Hakimiyyətinin başçısı təyin edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 124-cü maddəsinin II hissəsini rəhbər tutaraq **qərara alıram:**

Siraqəddin Nəcəf oğlu Cabbarov Sabirabad Rayon İcra Hakimiyyətinin başçısı təyin edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 17 may 2019-cu il.**

## N.M.İsmayılovun Saatlı Rayon İcra Hakimiyyətinin başçısı təyin edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 124-cü maddəsinin II hissəsini rəhbər tutaraq **qərara alıram:**

Nazim Mehdi oğlu İsmayılov Saatlı Rayon İcra Hakimiyyətinin başçısı təyin edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 17 may 2019-cu il.**

## A.C.Məlikovun xatirəsinin əbədiləşdirilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan musiqi sənətinin görkəmli nümayəndəsi, böyük bəstəkar, SSRİ Xalq artisti, Dövlət mükafatı laureatı, akademik Arif Cahangir oğlu Məlikovun xatirəsini əbədiləşdirmək məqsədilə **qərara alıram:**

**1.** Bakı Şəhər İcra Hakimiyyəti:

*1.1.* Fəxri xiyabanda Arif Məlikovun qəbirüstü abidəsinin qoyulmasını təmin etsin;

*1.2.* Bakı şəhərindəki küçələrdən birinə Arif Məlikovun adının verilməsini təmin etsin.

**2.** Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi:

*2.1.* Bakı Şəhər İcra Hakimiyyəti ilə birlikdə Bakı şəhərində Arif Məlikovun heykəlinin ucaldılmasını təmin etsin;

*2.2.* Bakı şəhərində yerləşən musiqi məktəblərindən birinə Arif Məlikovun adının verilməsini təmin etsin.

**3.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 17 may 2019-cu il.**

# Prezident İlham Əliyev müsəlman ölkələrinin Azərbaycandakı səfirlərini və diplomatik nümayəndəliklərinin rəhbərlərini qəbul edib




**(əvvəli 1-ci səhifədə)**

Cənab Prezident, biz hamımız bu müqəddəs ayda bizimlə görüşmək üçün dəyərli vaxtınızı ayırdığınıza, əsasını qoyduğunuz ənənəyə görə Sizə minnətdarıq və bu Sizin müsəlman ölkələrini və xalqlarını birləşdirən qardaşlıq əlaqələrinə dəstək və dayaq olmaq öhdəliyinizin bir təzahürüdür.

Bu müqəddəs ayda müsəlmanlara sülh, həmrəylik ab-havasında bir araya gəlmək imkanı verilməklə İslamın xeyirxah dəyərlərinə çağırış edilir, fikir və ruh yüksəlir və bununla da sakitlik, sabitlik, mənəvi yüksəliş və xeyirxahlığa doğru birlikdə addım atılır. Beləliklə, hər birimizin içində zəiflərə və aztəminatlılara yardım etmək, qardaşlıqda və ortaq taledən agah olaraq bağışlamaq və qəbul etmək xüsusiyyəti oyanır.

Cənab Prezident, nisbətən gənc Azərbaycan Respublikası müstəqilliyin ilk illərində bir çox çağırışlarla üzləşmişdir və o zaman onların öhdəsindən gəlmək qeyri-mümkün görünürdü. Lakin, ölkə rəhbərliyinin müdrikliyi və uzaqgörənliyi sayəsində Azərbaycan bu təhlükələrin öhdəsindən uğurla gələrək inkişaf etmiş, müasirliyi qəbul edən və gələcəyə doğru sürətlə addımlayan bir ölkəyə çevrilə bilmişdir. Eyni zamanda, qürur hissi ilə öz qədim İslam irsini və mədəniyyətini də qoruya bilmişdir.

Müsəlman ölkələrinin səfirləri kimi biz, qardaş Azərbaycanın möhtəşəm inkişafını, yenidən qurulmasını, bir çox sahələrdə apardığı islahatlarını və uğurlu transformasiyasını heyranlıqla müşahidə etmişik.

Müsəlman ümməsinin əziz, ayrılmaz və vacib bir üzvü kimi, Azərbaycan müsəlman aləminin Dağlıq Qarabağdan tutmuş Əl-Qüds, Əl-Şərif, Kəşmirə qədər və digər işğal olunmuş müsəlman əraziləri ilə bağlı məsələlərdə ədalətli haqq işini böyük səylə dəstəkləmiş, habelə bu günün çoxsaylı çağırışları ilə mübarizədə birgə səylərin önündə olmuşdur. Bunlardan biri də məkrli və yanlış məfhum olan islamofobiya ilə mübarizə aparmaqdır.

Sakit düşüncə ilə, təsdiqlənə bilən danılmaz mədəni, tarixi və dini faktları gətirməklə bu məfhumu təkzib edərək, İslamın tarixdə, öz qızıl əsrində insan birliyinin və mədəniyyətinin bütün sahələrinə əsas töhfə verən və bəşəriyyətin hamisi kimi böyük rolunu vurğulayaraq, Bakıda mədəniyyətlərarası və konfessiyalararası dialoqa dair çoxsaylı vacib konfranslar keçirməklə, “Bakı Prosesi”nə start verməklə Siz bəşəriyyətin universal və ortaq dəyərlərinə hörmət bəslənilməsinin vacibliyini qeyd etməyə davam edirsiniz. Sadəcə, fikir ayrılıqlarını aradan qaldırmaq, eləcə də sivilizasiyaların toqquşması adlanan yanlış arqumenti ifşa etmək üçün bəşəriyyətin nəyi paylaşdığını vurğulamaqla şərəfli missiyanın önündəsiniz. Biz bunu bir neçə gün öncə Bakıda keçirilmiş V Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunda da gördük. Qoşulmama Hərəkatına bu il rəhbərlik etməklə inkişaf etməkdə olan ölkələrin və bəşəriyyətin üzləşdiyi məsələlərin həllində fəal iştirak edirsiniz.

Azərbaycanın sülhün, inklüzivliyin və hörmətin üstünlük təşkil etdiyi, müxtəlif dinlərin nümayəndələrinin bir-biri ilə harmoniya içində yaşayıb-çalışması ilə İslamın həqiqi ruhunu nümayiş etdirən parlaq ulduzlardan biri olması danılmazdır. Bunu müşahidə etmək zövq verir. Beləliklə, dünyanın müxtəlif guşələrindən olan qonaqlar çox müsbət təəssüratlarla öz evlərinə qayıdır, Azərbaycan və İslam haqqında məlumatlar onların yaddaşına həkk olunur.

Cənab Prezident, müsəlman ümməsi Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində, sülh yolu ilə, beynəlxalq hüququn norma və prinsiplərinə əsasən həllini dəstəkləyir və bu məsələdə Azərbaycanın yanındadır, BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi bütün qətnamələrin seçmə üsulu ilə yox, bərabər şəkildə icrası üçün çağırış edir.

Bu müqəddəs ayda biz bütün işğal olunmuş müsəlman ərazilərinin və müqəddəs yerlərin öz həqiqi sahiblərinə qayıdacağı, ümməmizin İslamın adına ləkə gətirən pis, bədxah və cahil qüvvələri məğlub edəcəyi və bununla da bəzi ölkələrimiz üzərində olan qara buludların çəkiləcəyi, habelə qardaş ölkələrimiz arasında birlik və harmoniyanı bərqərar etmək üçün fikir ayrılıqlarının aradan qaldırılacağı günün yaxınlaşmasını arzu edirik. Bu da bizə innovasiya və tərəqqidə bəşər sivilizasiyasına mühüm töhfə verən tərəf kimi öz həqiqi yerimizi tutmağa imkan verəcəkdir.

Zati-aliləri, müsəlman ölkələrinin səfirləri və diplomatik missiyaların rəhbərləri adından sidq ürəklə Sizə və ailənizə cansağlığı, səadət və uğurlar, qardaş Azərbaycan xalqına isə davamlı sülh, inkişaf və rifah arzulayırıq.

Allah Sizi, Azərbaycanı və İslam ümməsini qorusun.

Çox sağ olun, cənab Prezident.

* * *

Sonda xatirə şəkli çəkdirildi.

**AZƏRTAC**

# Prezident İlham Əliyev Ukraynanın Azərbaycanda yeni təyin olunmuş səfirinin etimadnaməsini qəbul edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 17-də Ukraynanın ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Vladislav Kanevskinin etimadnaməsini qəbul edib.**

AZƏRTAC xəbər verir ki, səfir Vladislav Kanevski fəxri qarovul dəstəsinin qarşısından keçdi.

Vladislav Kanevski etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi.

Sonra Azərbaycan Prezidenti İlham Əliyev səfirlə söhbət etdi.

Söhbət zamanı Azərbaycan-Ukrayna münasibətlərinin müxtəlif aspektləri, o cümlədən ticarət dövriyyəsi, iqtisadi əməkdaşlıq, sərmayə qoyuluşu, mədəni əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.

Səfir əminliyini ifadə etdi ki, ölkəmizdəki diplomatik fəaliyyəti dövründə Ukrayna-Azərbaycan əlaqələrinin inkişafı istiqamətində səylərini əsirgəməyəcək.

**AZƏRTAC**







# Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ümumrusiya Bədii Gimnastika Federasiyasının prezidenti ilə görüşüblər



**(əvvəli 1-ci səhifədə)**

Prezident İlham Əliyev İrina Viner-Usmanovaya Azərbaycanda gimnastika məktəbinin yaradılması işinə verdiyi böyük töhfəyə görə də minnətdarlığını bildirdi. Dövlətimizin başçısı İrina Viner-Usmanovanın təkcə Azərbaycanda deyil, dünya idman ailəsində böyük nüfuza malik olduğunu qeyd edərək məhz onun səyləri nəticəsində Rusiya gimnastlarının da uzun illərdir yüksək nəticələr göstərdiyini vurğuladı. Prezident İlham Əliyev İrina Viner-Usmanovaya gələcək fəaliyyətində yeni-yeni uğurlar arzuladı.

Xoş sözlərə görə minnətdarlığını bildirən İrina Viner-Usmanova Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva tərəfindən ona göstərilən diqqətdən böyük məmnunluq hissi keçirdiyini qeyd etdi. O, birinci xanım Mehriban Əliyevanın Azərbaycanda bədii gimnastika növünün əsasının qoyulmasında və inkişafında xüsusi rolunu yüksək qiymətləndirdi. İrina Viner-Usmanova Azərbaycanda bədii gimnastika növünə göstərilən qayğıdan danışaraq Bakıda çox möhtəşəm gimnastika arenasının inşa edildiyini qeyd etdi. Azərbaycana səfərlərindən məmnunluq hissini ifadə edən İrina Viner-Usmanova ölkəmizə hər gəlişi zamanı böyük inkişaf proseslərinin, yeni-yeni memarlıq nümunələrinin şahidi olduğunu vurğuladı.

Sonda xatirə şəkli çəkdirildi.

**AZƏRTAC**

## N.M.İsmayılovun Sabirabad Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 124-cü maddəsinin II hissəsini rəhbər tutaraq **qərara alıram:**

Nazim Mehdi oğlu İsmayılov Sabirabad Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 17 may 2019-cu il.**

## S.N.Cabbarovun Saatlı Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 124-cü maddəsinin II hissəsini rəhbər tutaraq **qərara alıram:**

Siraqəddin Nəcəf oğlu Cabbarov Saatlı Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 17 may 2019-cu il.**

# Azərbaycanın Baş Naziri Çexiya Parlamenti Deputatlar Palatası sədrinin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb

**Azərbaycan Respublikasının Baş Naziri Novruz Məmmədov mayın 17-də Çex Respublikası Parlamentinin Deputatlar Palatasının sədri Radek Vondraçekin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.**



AZƏRTAC xəbər verir ki, Baş Nazir Novruz Məmmədov ölkəmizin müstəqilliyini bərpa etməsindən sonra Azərbaycan-Çexiya əlaqələrinin inkişaf mərhələsinə qədəm qoyduğunu bildirərək dövlətlərimizin başçılarının qarşılıqlı səfərlərinin, görüşlərinin ölkələrimiz arasındakı münasibətlərin inkişafına mühüm töhfələr verdiyini deyib. 2015-ci ildə ölkələrimiz arasında strateji tərəfdaşlıq haqqında Birgə Bəyannamənin imzalandığını xatırladan Baş Nazir qeyd edib ki, Azərbaycan Respublikası ilə Çex Respublikası arasında siyasi, iqtisadi, humanitar, elmi-texniki və digər sahələri əhatə edən qarşılıqlı faydalı əməkdaşlıq əlaqələri qurulub.

Azərbaycanın Dağlıq Qarabağ regionunun və onun ətrafında yerləşən 7 rayonun uzun illərdir erməni işğalı altında olduğunu bildirən Novruz Məmmədov Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllində ölkəmizin ədalətli mövqeyinə verdiyi dəstəyə, Xocalı soyqırımı ilə bağlı qəbul olunmuş sənədə görə Çex Respublikasına və onun parlamentinə minnətdarlığını ifadə edib.

Ölkəmizə geniş tərkibdə nümayəndə heyəti ilə səfər etdiklərini vurğulayan Radek Vondraçek Azərbaycan ilə Çexiya arasında çox yaxşı münasibətlərin mövcud olduğunu, bu səfərlərinin də ikitərəfli əlaqələrin daha da genişləndirilməsinə töhfə vermək məqsədi daşıdığını vurğulayıb. Azərbaycanın Çexiyanın etibarlı tərəfdaşı olduğunu qeyd edən Radek Vondraçek ölkəsinin Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə beynəlxalq hüququn norma və prinsipləri əsasında həllini dəstəklədiyini söyləyib.

Görüşdə ölkələrimizin parlamentləri arasında da yaxşı əlaqələrin qurulduğu qeyd olunub, həmçinin hökumətlərarası birgə komissiyanın fəaliyyətinə, enerji, turizm, ticarət, təhsil sahələrində əməkdaşlığın genişləndirilməsinə və qarşılıqlı maraq doğuran digər məsələlərə dair fikir mübadiləsi aparılıb.

AZƏRTAC

# Azərbaycanda qida təhlükəsizliyinin təmin edilməsi istiqamətində mühüm işlər görülür






**Mayın 17-də II Bakı Beynəlxalq Qida Təhlükəsizliyi Konfransı keçirilib. Konfrans Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi (AQTA) tərəfindən XXV Azərbaycan Beynəlxalq Qida Sənayesi "WorldFood Azerbaijan 2019" sərgisi çərçivəsində təşkil edilib.**

AZƏRTAC xəbər verir ki, tədbirdə çıxış edən AQTA-nın sədri Qoşqar Təhməzli konfransın keçirilməsində əsas məqsədlərdən birinin qida təhlükəsizliyi sahəsində xarici ölkələrlə və beynəlxalq təşkilatlarla əməkdaşlıq əlaqələrini daha da inkişaf etdirmək, onların Azərbaycanda qida təhlükəsizliyinin təmin edilməsinə töhfə verə biləcək layihələrini səmərəli şəkildə əlaqələndirmək, həyata keçirmək və bu istiqamətdə mütəmadi olaraq fikir mübadiləsi aparmaqdan ibarət olduğunu qeyd edib. Agentliyin sədri bildirib ki, AQTA bu sahədə beynəlxalq təşkilatlarla hər cür əməkdaşlığa və birgə fəaliyyətə hazırdır. Qoşqar Təhməzli, ölkəmizdə ərzaq təhlükəsizliyinin təminatı sahəsində atılan addımlar barədə məlumat verərək deyib: "Azərbaycanda qida təhlükəsizliyinin təmin edilməsi istiqamətində mühüm işlər görülür. Ölkə başçısı bu il aprelin 29-da "Azərbaycan Respublikasında qida təhlükəsizliyinin təmin edilməsinə dair 2019-2025-ci illər üçün Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında Sərəncam imzalayıb. Qida təhlükəsizliyi mərhələli şəkildə həyata keçirilən prosesdir. Təsdiq olunmuş yeddi illik proqram yaxın zamanlarda mərhələli şəkildə həyata keçiriləcək".

Q.Təhməzli rəhbərlik etdiyi qurumun müxtəlif beynəlxalq təşkilatlarla əməkdaşlıq etdiyini diqqətə çatdırıb.

Agentliyin sədri II Bakı Beynəlxalq Qida Təhlükəsizliyi Konfransının ölkəmizin etibarlı tərəfdaş kimi beynəlxalq təşkilatlarla əməkdaşlığını daha da genişləndirəcəyini, kənd təsərrüfatı və qida sənayesi sektorları üzrə ixracatın inkişafına mühüm töhfə verəcəyini, daxili və beynəlxalq bazarlarda istehlakçıların ehtiyaclarına cavab verən yüksəkkeyfiyyətli və təhlükəsiz məhsulların istehsalına kömək edəcəyini də xüsusi vurğulayıb.

Azərbaycan Respublikası baş nazirinin müavini Əli Əhmədov dünya əhalisinin sürətlə artdığını və insanların tələbatlarını ödəmək üçün resursların azaldığını deyib: "İnsanların tələbatlarının ödənilməsi üçün qidanın yeni üsullarla istehsalına ehtiyac yaranıb. Bu zaman qidanın, ərzaq məhsullarının keyfiyyəti, tərkibi, insan sağlamlığı üçün təhlükəsiz olması məsələsi ön plana çıxır. Hazırda qida təhlükəsizliyi problemi bəşəriyyət üçün vacibdir. Qida təhlükəsizliyi probleminin həlli üçün bundan sonra səylər daha da artırılacaq. Ona görə də hər bir ölkə öz strategiyasını və konsepsiyasını müəyyənləşdirməli və həyata keçirmək haqqında düşünməlidir. Azərbaycan dünyada ən çox islahat aparan ölkələrdən biridir. Ölkəmizdə həyata keçirilən islahatlar içərisində qida təhlükəsizliyi ilə əlaqədar müəyyənləşdirilmiş konsepsiya ayrıca qeyd olunmalıdır. İslahatlar çərçivəsində həyata keçirilmiş mühüm işlərdən biri də qida təhlükəsizliyinin təkmilləşdirilməsi, müasir standartlara uyğunlaşdırılması əhalinin sağlam və təhlükəsiz qida ilə təminatına və kənd təsərrüfatı məhsullarının ayrı-ayrı ölkələrə ixracına töhfə verilməsindən ibarətdir. Onu da qeyd edim ki, ölkəmizdə kifayət qədər münbit torpaqların bir qismi işğal altındadır. Bu o deməkdir ki, kənd təsərrüfatına yararlı torpaqların potensialı 20 faiz azalıb.

Ölkəmizdə daxili istehsal nəticəsində əldə edilən qida məhsulları ilə yanaşı, idxal edilən məhsulların da müvafiq standartlara uyğunlaşdırılması sağlam qida təminatına imkan yaradacaq. Azərbaycan qida təhlükəsizliyi sahəsində öz üzərinə düşən vəzifələri dərk edir. ümid edirəm ki, həyata keçirilən tədbirlər və atılacaq addımlar nəticəsində əhalinin sağlam qida ilə təminatı bütövlükdə öz həllini tapacaq".

Baş nazirin müavini tədbirin qida təhlükəsizliyi sahəsində ciddi müzakirə və fikir mübadiləsinə imkan verəcəyini bildirib və konfransın işinə uğurlar arzulayıb.

Tədbirdə çıxış edən Kənd Təsərrüfatı naziri İnam Kərimov qida təhlükəsizliyinin beynəlxalq dialoqların əsas müzakirə mövzusu olduğunu bildirib. İnam Kərimov qeyd edib ki, araşdırmalara görə, qidanın insan sağlamlığına mənfi təsiri iqtisadiyyata zərər vurur: "Qida təhlükəsizliyi sisteminin təkmilləşdirilməsi həm sosial, həm də iqtisadi inkişaf baxımından əhəmiyyətə malikdir. O həm də Dayanıqlı İnkişaf Məqsədlərinə nail olmaq şərtlərindən biridir. Qlobal inkişafın bütün mərhələlərini innovasiyasız təsəvvür etmək mümkün deyil. Təhlükəsiz qidanın istehsalı üçün innovativ texnologiyaların tətbiqi vacibdir. Onu da qeyd edim ki, qida təhlükəsizliyi sisteminin təkmilləşdirilməsi nəticəsində ölkəmizdə kənd təsərrüfatı və ərzaq sənayesi məhsullarının keyfiyyət göstəriciləri yüksəlib. Kənd Təsərrüfatı Nazirliyi qida təhlükəsizliyinin təmin edilməsində maraqlı tərəflərdən biridir. Bu sahədə nazirliyin üzərinə vəzifələr düşür və müvafiq tədbirlər həyata keçirilir".

Sonra çıxış edən Avropa İttifaqının Sağlamlıq və Qida Təhlükəsizliyi üzrə Baş Direktoratlığının siyasət məmuru Janr Bloumendal, Gürcüstanın Kənd Təsərrüfatı və Ətraf Mühitin Mühafizəsi Nazirliyi yanında Gürcüstan Milli Qida Agentliyinin rəhbəri Zurab Çekuraşvili, Türkiyə Cümhuriyyətinin Heyvandarlıq və Meşəçilik Nazirliyinin Qida və Nəzarət Müdirliyinin rəhbəri Mümtaz Sinan, Serbiya Respublikasının Kənd Təsərrüfatı, Meşə və Su Resurslarının İdarəedilməsi Nazirliyinin dövlət katibi Senad Mahmudoviç, Qazaxıstan Respublikasının Kənd Təsərrüfatı Nazirliyinin Heyvandarlıq Nəzarəti Komitəsinin sədri Arman Utequlov, ABŞ Beynəlxalq İnkişaf Agentliyinin Azərbaycan üzrə missiyasının direktoru Jaidev Jay Sinq Azərbaycanda qida təhlükəsizliyinin təmin olunması istiqamətində görülən işləri yüksək qiymətləndirib, təmsil etdiyi ölkə və qurumların bu sahədə həyata keçirdiyi tədbirlərdən danışıblar.

AQTA-nın sədr müavini Elxan Mikayılov ölkəmizdə qida təhlükəsizliyi sahəsində həyata keçirilən islahatlara dair məruzə ilə çıxış edib.

Sonra Azərbaycan Qida Təhlükəsizliyi İnstitutu, ABŞ-ın Merilend Universiteti və ABŞ-Azərbaycan Ticarət Palatası, Azərbaycan Qida Təhlükəsizliyi İnstitutu və Türk Standartlar İnstitutu, Azərbaycan Qida Təhlükəsizliyi İnstitutu və Türkiyə Akkreditasiya Qurumu arasında anlaşma memorandumları imzalanıb. Azərbaycan Qida Təhlükəsizliyi İnstitutunun İdarə Heyətinin sədri Sadiq Məmmədov, ABŞ-Azərbaycan Ticarət Palatasının Direktorlar Şurasının həmsədri Reza Vəziri, ABŞ-ın Merilend Universitetinin Beynəlxalq Proqramlar rəhbəri Çengi Vei, Türk Standartlar İnstitutunun rəhbəri Adem Şahin, Türkiyə Akkreditasiya Qurumunun rəhbəri Orbay Evrensevdi çıxış edərək memorandumun qida təhlükəsizliyi sahəsində imkanları genişləndirəcəyini deyiblər.

Konfrans sessiyalarla davam etdirilib. Sessiyalar zamanı "Kodeks Alimentarius" standartları, yerli qanunvericilik və beynəlxalq harmonizasiya, risklərə əsaslanan idxal qaydaları, HACCP sisteminin tətbiqi və qida təhlükəsizliyi sahəsində fəaliyyət göstərən subyektlərin vəzifələri, qida təhlükəsizliyinin təmin olunmasında heyvanların identifikasiya sistemi və izlənilməsi mövzularında məruzələr dinlənilib və müzakirələr aparılıb.

AZƏRTAC

# Ulu öndər Heydər Əliyevin anadan olmasının 96-cı ildönümü və Heydər Əliyev Fondunun fəaliyyətə başlamasının 15 illiyi münasibətilə Həştərxanda bir sıra tədbirlər keçirilib

## *Tədbirlərdə Azərbaycan nümayəndə heyəti iştirak edib*



**Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 96-cı ildönümü və Heydər Əliyev Fondunun fəaliyyətə başlamasının 15 illiyi münasibətilə Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələləri üzrə köməkçisi Əli Həsənovun rəhbərlik etdiyi nümayəndə heyəti Həştərxan vilayətinə rəsmi səfərə gəlib. Həştərxan şəhərinin beynəlxalq aeroportunda Azərbaycan nümayəndə heyətini Həştərxan vilayəti qubernatorunun səlahiyyətlərini müvəqqəti icra edən Sergey Morozov və digər rəsmi şəxslər qarşılayıblar. Ənənəyə görə, qonaqları duz-çörəklə qarşılayıblar.**



Sonra Azərbaycan və Həştərxan nümayəndə heyətləri ümummilli lider Heydər Əliyevin Həştərxan şəhərinin mərkəzində onun adını daşıyan parkda ucaldılmış abidəsi önünə tər güllər düzüblər.

Heydər Əliyev adına parkda hər iki tərəfin nümayəndə heyətlərinin iştirakı ilə rəmzi ağacəkmə aksiyası keçirilib.

Daha sonra Həştərxan vilayəti administrasiyasında Azərbaycan və Həştərxan nümayəndə heyətlərinin görüşü olub. Görüşdə ikitərəfli münasibətlərə dair məsələlər müzakirə edilib, qarşılıqlı əməkdaşlığı genişləndirməyin və dərinləşdirməyin vacibliyi vurğulanıb.





Görüşdən sonra Əli Həsənov və Sergey Morozov Azərbaycan və Rusiya KİV nümayəndələrinin suallarını cavablandırıblar.

Əli Həsənov jurnalistlərlə söhbətində deyib ki, Həştərxan vilayəti qubernatoru səlahiyyətlərini icra edən Sergey Morozovla görüşdə ikitərəfli münasibətlərə dair məsələlər müzakirə edilib. Prezidentin köməkçisi deyib: "Biz regional əməkdaşlığı dərinləşdirəcək, genişləndirəcək və inkişaf etdirəcəyik. Bu, həm Həştərxan vilayətinin sakinləri, həm də Azərbaycan əhalisi üçün vacibdir. Azərbaycan Respublikasının və Rusiya Federasiyasının prezidentləri bizim qarşılıqlı tərəfdaşlıq münasibətlərimizin strateji istiqamətlərini müəyyən ediblər. Həştərxan vilayətinin və Azərbaycan Respublikasının rəhbərləri bu planları ən qısa müddətdə həyata keçirməyə çalışacaqlar".

Qubernator səlahiyyətlərinin icra edən Sergey Morozov vurğulayıb ki, Həştərxan vilayəti Azərbaycan ilə qarşılıqlı fəaliyyət üzrə böyük işlər planlaşdırır. S.Morozov deyib: "Bugünkü görüşümüz ümumi niyyətlərə yönəlmiş daha bir addımdır. Görüş yüksək səviyyədə keçdi və biz bundan sonra da ikitərəfli münasibətlərin inkişafını davam etdirəcəyik".

Azərbaycan nümayəndə heyəti səfər çərçivəsində Azərbaycan İşgüzar Mərkəzində olub, orada Heydər Əliyev Fondunun və Fondun vitse-prezidenti Leyla Əliyevanın adından Həştərxan şəhərindəki uşaq evlərində tərbiyə alan bir qrup uşağa ümummilli lider Heydər Əliyevin anadan olmasının 96-cı ildönümü və Heydər Əliyev Fondunun fəaliyyətə başlamasının 15 illiyi münasibətilə xatirə hədiyyələri təqdim edilib. Uşaqlar onlara göstərilən diqqət və qayğıya görə Heydər Əliyev Fonduna təşəkkür ediblər. Hədiyyələrin təqdim edilməsi mərasimindən sonra uşaq evlərində tərbiyə alanlar və onların müəllimləri Azərbaycan İşgüzar Mərkəzinin binası qarşısında Azərbaycanın üçrəngli bayrağı rəngində olan şarları səmaya buraxıblar. Tədbirin sonunda xatirə şəkli çəkdirilib.

Sonra Azərbaycan nümayəndə heyəti Heydər Əliyev adına 11 nömrəli orta ümumtəhsil məktəbinə gəlib. Burada təhsil müəssisəsinin foyesində Azərbaycan xalqının ümummilli Liderinin büstü önünə tər çiçəklər qoyulub. Heydər Əliyevin anadan olmasının 96-cı ildönümü və Heydər Əliyev Fondunun fəaliyyətə başlamasının 15 illiyi münasibətilə Ulu Öndərin adını daşıyan və 8 il bundan əvvəl Fondun təşəbbüsü ilə əsaslı təmir edilmiş məktəbdə şagirdlər tərəfindən bədii konsert proqramı təqdim olunub.

Tədbir çərçivəsində təhsildə fərqlənən şagirdlərə və onların müəllimlərinə Heydər Əliyev Fondu adından hədiyyələr təqdim edilməsi mərasimi keçirilib. Mərasimdə Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevaya, vitse-prezident, Fondun Rusiyadakı nümayəndəliyinin rəhbəri Leyla Əliyevaya Fondun çoxşaxəli fəaliyyətinə görə təşəkkür ifadə edilib.

Azərbaycan Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov çıxışında ulu öndər Heydər Əliyevin həyat və fəaliyyəti, habelə Fondun həm ölkəmizdə, həm də Azərbaycan hüdudlarından kənarda həyata keçirdiyi irimiqyaslı layihələr barədə məlumat verib. Qeyd edilib ki, Rusiyanın çoxsaylı regionlarında müxtəlif layihələr reallaşdıran Fond Həştərxan vilayətinin əsl dostudur.

Həştərxan vilayətinin beynəlxalq və xarici iqtisadi əlaqələr naziri səlahiyyətlərini icra edən Denis Afanasyev, Heydər Əliyev adına 11 nömrəli orta ümumtəhsil məktəbinin direktoru Tatyana Tixomirova, Heydər Əliyev Fondunun və şəxsən Fondun prezidenti Mehriban Əliyevanın Azərbaycan Respublikası ilə Rusiya Federasiyasının Həştərxan vilayəti arasında dostluq münasibətlərinin inkişafında və möhkəmlənməsində xidmətlərini qeyd ediblər.

Əli Həsənovun rəhbərlik etdiyi nümayəndə heyəti səfər çərçivəsində Həştərxan vilayəti ərazisində yaradılmış Azərbaycanın "KDY Logistics" şirkətinin logistik habı ilə də tanış olub. Bu şirkət "bir pəncərə" prinsipi üzrə gömrük və fitosanitar nəzarətin həyata keçirilməsini, həm Azərbaycandan, həm də başqa ölkələrdən kənd təsərrüfatı məhsullarının qəbulunu, saxlanılmasını və göndərilməsini təmin edir. Hab ilə tanışlıq zamanı Azərbaycan Prezidentinin köməkçisi Əli Həsənov Həştərxan vilayəti gömrük xidmətinin, "Rospotrebnadzor"un, "Rusiya Dəmir Yolları" ASC-nin Volqaboyu dəmiryolu struktur bölməsinin Həştərxan şöbəsinin və digər əlaqədar strukturların rəhbərləri ilə fikir mübadiləsi aparıb.

Bununla da Azərbaycan nümayəndə heyətinin Həştərxan vilayətinə səfəri başa çatıb.

AZƏRTAC

# Çex Respublikası Parlamentinin Deputatlar Palatasının nümayəndələri Azərbaycan Milli Aviasiya Akademiyasında olublar





**Ölkəmizdə səfərdə olan Çex Respublikası Parlamentinin Deputatlar Palatasının sədri Radek Vondraçekin başçılıq etdiyi nümayəndə heyəti mayın 17-də Azərbaycan Milli Aviasiya Akademiyasında olub.**

AZƏRTAC xəbər verir ki, qonaqlar əvvəlcə akademiyanın Pilotların Hazırlığı Mərkəzi ilə tanış olublar. Sonra Azərbaycan Milli Aviasiya Akademiyasının rektoru, akademik Arif Paşayev Çexiya nümayəndə heyəti ilə görüşüb.

Azərbaycan-Çexiya əlaqələrinin yüksək səviyyədə olduğunu qeyd edən rektor Arif Paşayev Azərbaycan aviasiyası barədə qonaqlara məlumat verib.

Ölkəmizin Çexiya ilə əlaqələrə önəm verdiyini, iki ölkə arasında əməkdaşlığın inkişafında dövlət başçılarının qarşılıqlı səfərlərinin, bu səfərlər zamanı əldə edilmiş razılaşmaların əhəmiyyətini vurğulayan Arif Paşayev bildirib ki, Azərbaycan və Çexiya siyasi, iqtisadi və humanitar sahələrdə sıx əməkdaşlıq edir. İki ölkə arasında mövcud əməkdaşlığın yüksək inkişaf potensialı olduğunu vurğulayan akademik mülki aviasiya sahəsində də geniş imkanların olduğunu deyib.



Arif Paşayev Milli Aviasiya Akademiyası, "Azərbaycan Hava Yolları" (AZAL) aviaşirkəti və Heydər Əliyev Beynəlxalq Aeroportu barədə qonaqlara məlumat verərək bildirib ki, 2018-ci ildə Azərbaycan mülki aviasiyasının 80 illik yubileyi təntənəli qeyd olunub. Hazırda AZAL postsovet məkanında mülki aviasiya sahəsində aparıcı aktorlardan birinə çevrilib, beynəlxalq aviasiya birliyinin üzvü olub. 2014-cü ildə Heydər Əliyev Beynəlxalq Aeroportunun yeni müasir terminalı istifadəyə verilib. Aeroport bu yaxınlarda nüfuzlu "Skytrax" auditor şirkətinin ən yüksək "5 Ulduz" qiymətinə layiq görülüb. Bu ən yüksək qiymət Heydər Əliyev Beynəlxalq Aeroportundan başqa cəmi 8 aeroporta verilib. AZAL isə qısa müddət ərzində geniş füzelyajlı "Boeing", "Airbus", "Embraer" kimi ən müasir təyyarələrin, qərbdə istehsal olunmuş helikopterlərin istismarına başlayıb. 2017-ci ildə aşağı büdcəli "Buta Airways" aviaşirkəti yaradılıb.

Pilotların Hazırlığı Mərkəzi barədə danışan rektor buranın MDB məkanında ən böyük tədris mərkəzi olduğunu vurğulayıb. O, mərkəzdə hazırkı pilotların gələcək pilotlara dərs keçdiyini bildirib. Akademik, həmçinin mərkəzdə Rusiya, Özbəkistan və digər ölkələrdən pilotların təcrübə keçdiyini də diqqətə çatdırıb.

Rektor Azərbaycanın Çex Respublikasının mülki aviasiya sistemində mövcud bir sıra mülki və hərbi təyyarələrlə maraqlandığını bildirib.

Ölkəmizdə olmaqdan məmnunluğunu ifadə edən Çex Respublikası Parlamentinin Deputatlar Palatasının sədri R.Vondraçek akademik Arif Paşayevi Çexiyaya səfərə dəvət edib.

"İki gün ərzində biz bir sıra görüşlər keçirdik, Azərbaycanın bir sıra sahələrdəki təcrübəsi ilə yaxından tanış olduq. Azərbaycan Prezidenti İlham Əliyevlə görüşümüz çox səmərəli keçdi. Azərbaycan Prezidenti də vurğuladı ki, bizim ölkələrimiz arasında iqtisadi əməkdaşlığın yaxşı perspektivləri mövcuddur. Nümayəndə heyətinin Azərbaycana səfərinin məqsədi ölkələrimiz arasında mövcud olan çox yaxşı münasibətlərin daha da inkişaf etdirilməsi işinə töhfə verməkdir".

R.Vondraçek Azərbaycanda müxtəlif sahələrdə aparılan köklü islahatların təqdir edildiyini, çex investorları tərəfindən ölkəmizə böyük maraq olduğunu diqqətə çatdırıb.

Çexiya mülki aviasiyası barədə məlumat verən qonaq bir sıra mülki və hərbi təyyarələrin istehsalı, istismarı və təmiri, eləcə də aviasiya vasitələrinin modernləşdirilməsi və yenilənməsi, texniki baxımdan yerli şəraitə uyğunlaşdırılmış müasir təyyarələr barədə danışıb.

Görüşdə Azərbaycanla Çexiya arasında aviasiya sahəsində əməkdaşlığın perspektivləri müzakirə olunub, Bakı-Praqa-Bakı marşrutu üzrə aviareyslərin sayının artırılması və ikitərəfli təcrübə mübadiləsinə dair geniş fikir mübadiləsi aparılıb.

**AZƏRTAC**

# Çinin CCTV-4 telekanalı Azərbaycanla bağlı çoxseriyalı film çəkib

**Çinin CCTV-4 beynəlxalq telekanalı Azərbaycanla bağlı çoxseriyalı sənədli film çəkib.**

Hər seriyası 40 dəqiqə olan səkkiz hissəli film "Bir kəmər, bir yol" layihəsi çərçivəsində təqdim olunub.

Azərbaycanın bir sıra şəhərlərində çəkilişlər edən telekanal ölkənin iqtisadiyyatı, tarixi, mədəniyyəti, turizmi haqqında geniş məlumat verib. Müəlliflər bildirirlər ki, Azərbaycan 1991-ci ildə müstəqilliyini bərpa edib, 1992-ci ildə Çin ilə diplomatik əlaqələr qurub.




Filmdə qeyd olunur ki, qədim sivilizasiyalar arasında yerləşən Azərbaycan böyük İpək Yolu ticarətində Şərqlə Qərb arasında əsas körpü rolunu oynayıb. Televiziya filmində deyilir ki, qədim İpək Yolunun izləri Bakının hər bir küncündə hələ də sezilir. Filmdə Qobustan, Atəşgah, Yanardağ və digər tarixi abidələr, palçıq vulkanları, Azərbaycan nefti barədə də maraqlı faktlar yer alıb.




İpək Yolunun izləri ilə çəkiliş qrupu Şəkiyə də səfər edib, məşhur Şəki ipəyi istehsal olunan fabrikdə olub, bu bölgənin adət-ənənələri və mətbəxinin şah təamı - pitinin hazırlanmasını lentə alıb.

Telekanal bir neçə seriyanı isə Naxçıvana həsr edib. Müəlliflər Duzdağ Fizioterapiya Mərkəzi, Əlincəqala, Uşaq Bərpa Mərkəzi, Naxçıvan Dövlət Universitetində də çəkilişlər aparıb.

Filmdə Prezident Administrasiyasının xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev, Çinin Azərbaycandakı səfiri Vey Cinhua ilə müsahibələr yer alıb.

**AZƏRTAC**

# Ədalət mühakiməsi sistemində insan haqlarına dair beynəlxalq seminar başa çatıb

**Beynəlxalq Prokurorlar Assosiasiyasının və Azərbaycan Respublikası Prokurorluğunun birgə təşkilatçılığı ilə keçirilən "Ədalət mühakimə sistemində insan haqları ilə bağlı qarşıda duran məsələlər" mövzusunda beynəlxalq seminar işini başa çatdırıb.**



Baş Prokurorluğun və Məhkəmə-Hüquq Şurasının AZƏRTAC-a daxil olan birgə məlumatında bildirilir ki, tədbir çərçivəsində ekspertlər tərəfindən Avropa İnsan Hüquqları Konvensiyası kontekstində azadlıq və toxunulmazlıq, ədalətli məhkəmə araşdırması hüquqları, informasiya sahəsində insan hüquq və azadlıqlarının təmin olunması barədə iştirakçılara ətraflı məlumat verilib. Eləcə də digər mövzularla bağlı ortaya çıxan problemlər və onların həlli yolları, Avropa İnsan Hüquqları Məhkəməsinin həmin məsələlərə yanaşması, prioritetləri və yeni istiqamətləri ətraflı müzakirə edilib.

Seminarda təqdimatlar dinlənilib, praktiki məsələlər müzakirə olunub, iştirakçıların sualları beynəlxalq ekspertlər tərəfindən cavablandırılıb.

Tədbirin sonunda iştirakçılara müvafiq sertifikatlar təqdim olunub.

Seminar iştirakçıları tədbirin yüksək səviyyədə təşkilinə görə minnətdarlıqlarını bildiriblər.

**AZƏRTAC**

# Çexiya Azərbaycanla əlaqələrin genişləndirilməsində maraqlıdır

**İqtisadiyyat naziri Şahin Mustafayev Çex Respublikası Parlamentinin Deputatlar Palatasının sədri Radik Vondraçekin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.**

İqtisadiyyat Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, nazir Azərbaycanın Çexiya ilə əlaqələrə önəm verdiyini, ölkələrimiz arasında əməkdaşlığın inkişafında dövlət başçılarının qarşılıqlı səfərlərinin, bu səfərlər zamanı əldə edilmiş razılaşmaların mühüm əhəmiyyətini qeyd edib. Bildirib ki, Azərbaycan və Çexiya siyasi, iqtisadi və humanitar sahələrdə sıx əməkdaşlıq edir. Ölkələrimiz arasında 2015-ci ildə Strateji Tərəfdaşlıq haqqında Birgə Bəyannamə imzalanıb, möhkəm müqavilə-hüquq bazası yaradılıb. Hər iki ölkənin parlamentlərində qarşılıqlı əməkdaşlıq üzrə dostluq qrupları fəaliyyət göstərir. Azərbaycan Respublikası



Hökuməti və Çex Respublikası Hökuməti arasında iqtisadi, elmi-texniki və mədəni əməkdaşlıq üzrə Qarışıq Komissiyanın fəaliyyəti ikitərəfli əlaqələrin inkişafında önəmlidir.

"Hazırda Azərbaycanda xidmət, rabitə, ticarət, tikinti və sair sahələrdə 26 çex kapitallı şirkət fəaliyyət göstərir. Çexiyanın Cənubi Qafqaz ölkələri ilə ticarət dövriyyəsinin 88 faizdən çoxu Azərbaycanın payına düşür. Ölkələrimiz maşınqayırma, maliyyə, ticarət və qarşılıqlı investisiya qoyuluşu sahələrində əməkdaşlıq edirlər. Əczaçılıq, maşınqayırma, kimya sənayesi, nəqliyyat və tranzit, turizm, İKT sahələrində əməkdaşlıq imkanları genişdir", - deyə nazir bildirib.

Görüşdə qeyd olunub ki, Azərbaycan və Çexiya arasında əlaqələr humanitar sahədə də inkişaf edir, Bakı Slavyan Universitetində Çexiya dili və mədəniyyəti mərkəzi fəaliyyət göstərir.

Çexiya Parlamentinin Deputatlar Palatasının sədri R.Vondraçek Azərbaycan iqtisadiyyatının şaxələndirilməsini yüksək qiymətləndirdiyini və ölkəsinin Azərbaycanla əlaqələrin genişləndirilməsində maraqlı olduğunu diqqətə çatdırıb, iki ölkə arasında əməkdaşlığın inkişafı perspektivləri barədə fikirlərini bölüşüb. O, Azərbaycan-Çexiya biznes forumunun ikitərəfli iqtisadi əlaqələrə töhfə verəcəyinə əminliyini ifadə edib.

Görüşdə Azərbaycanda yaradılmış əlverişli biznes və investisiya mühitindən faydalanaraq birgə müəssisələrin yaradılması, ticarət əlaqələrində qeyri-neft sektorunun payının artırılması və sair məsələlər barədə fikir mübadiləsi aparılıb.

**AZƏRTAC**

# Azərbaycan ilə Çexiya arasında hərbi-texniki sahədə birgə layihələrin həyata keçirilməsi müzakirə olunub

**Mayın 17-də müdafiə sənayesi nazirinin müavini Yəhya Musayev Azərbaycanda səfərdə olan Çexiyanın "Ceska Zbrojovka Group SE" şirkətinin idarə heyətinin sədri və prezidenti Lyubomir Kovarikin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.**

Müdafiə Sənayesi Nazirliyindən (MSN) AZƏRTAC-a bildiriblər ki, nazir müavini Azərbaycan ilə Çexiya arasındakı ikitərəfli münasibətlərin yüksək səviyyədə olmasından məmnunluğunu ifadə edib. Qurumun fəaliyyətindən danışan Yəhya Musayev Azərbaycan MSN-in Çexiyanın müvafiq qurumları ilə hərbi-texniki sahədə əməkdaşlıq etmək üçün daim hazır olduğunu vurğulayıb.

Görüşdə MSN ilə "Ceska Zbrojovka Group SE" şirkəti arasında hərbi-texniki sahədə birgə layihələrin həyata keçirilməsinə dair müzakirələr aparılıb.

**AZƏRTAC**

# Belarus Dövlət Hərbi-Sənaye Komitəsinin sədri "MİLEX-2019" sərgisində MSN-in stendini ziyarət edib

**Mayın 17-də Minskdə keçirilən "MİLEX-2019" IX beynəlxalq silah və hərbi texnika sərgisində Belarus Respublikası Dövlət Hərbi-Sənaye Komitəsinin sədri Roman Qolovçenko Azərbaycan Respublikası Müdafiə Sənayesi Nazirliyinin (MSN) stendini ziyarət edib. Komitə sədri MSN-in stendində nümayiş etdirilən məmulatları böyük maraqla izləyib.**

**MSN-dən AZƏRTAC-a bildiriblər ki, ziyarət zamanı nazirliyin nümayəndələri ilə görüşən Roman Qolovçenko "MİLEX-2019" sərgisində Azərbaycanın stendlə təmsil olunmasından məmnunluğunu ifadə edib.**

**Sərgi işini mayın 18-də yekunlaşdıracaq.**

**AZƏRTAC**

# Avropa Şurasının Nazirlər Komitəsi bütün üzv dövlətlərin müstəqilliyinə və ərazi bütövlüyünə dəstəyini təsdiq edib

**Mayın 17-də Finlandiyanın paytaxtı Helsinki şəhərində Avropa Şurası Nazirlər Komitəsinin 129-cu sessiyası keçirilib. Finlandiyanın Nazirlər Komitəsinə altı aylıq sədrliyinə yekun vuran bu toplantıda ölkəmizi Azərbaycan Respublikası Xarici İşlər nazirinin müavini Mahmud Məmməd-Quliyev təmsil edib.**

Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Avropa Şurasının təsis edilməsinin 70-ci ildönümünün qeyd olunduğu bu nazirlər sessiyasında təşkilatın üzləşdiyi təhdidlər, mümkün islahatlar və gələcək fəaliyyət istiqamətləri müzakirə olunub. Toplantıda çıxış edən nazir müavini Mahmud Məmməd-Quliyev əvvəlcə Avropa Şurası ilə aparılan əməkdaşlığa toxunub və bir müddət öncə təsdiq olunmuş Avropa Şurasının Azərbaycan üzrə növbəti Fəaliyyət Planının icrasından bəhs edib. O, bundan əlavə, Avropa qitəsində mövcud münaqişə zonalarına beynəlxalq təsisatların girişinə dair Azərbaycanın prinsipial mövqeyini xatırladıb və bu zonalarla bağlı mümkün fəaliyyətlərin öncədən legitim mərkəzi hakimiyyət dairələri ilə razılaşdırılmalı olduğunu bəyan edib. Nazir müavini Azərbaycan torpaqlarının Ermənistan tərəfindən davam edən hərbi işğalının nəticəsi olaraq yaranmış vəziyyətə istinad edib və İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin "Çıraqov və digərləri Ermənistana qarşı" işi üzrə 2015-ci ildə çıxardığı önəmli hökmdə bu ölkənin Azərbaycanın işğal olunmuş əraziləri üzərində effektiv nəzarəti həyata keçirdiyi barədə gəldiyi qənaəti vurğulayıb.

Qeyd olunmalıdır ki, Avropa Şurası Nazirlər Komitəsi üzv dövlətlərindəki münaqişələri diqqətdən kənar qoymayıb. Belə ki, sessiyanın nəticəsi olaraq qəbul edilmiş siyasi bəyanatda Avropa qitəsinin bəzi hissələrinin məruz qaldığı qarşıdurma və davam edən münaqişələrə görə narahatlıq ifadə edilib və beynəlxalq hüququn norma və prinsiplərinə uyğun olaraq, barışıq və siyasi həll üçün birgə səylərin göstərilməli olduğu açıqlanıb. Daha önəmlisi isə, üzv dövlətlərin hüquq və öhdəlikləri barədə müvafiq qərarda Avropa Şurası Nazirlər Komitəsi beynəlxalq ictimaiyyət tərəfindən tanınmış sərhədlər çərçivəsində bütün üzv dövlətlərin müstəqilliyi, suverenliyi və ərazi bütövlüyünə dəstəyini təsdiq edib.

Helsinkidəki sessiyanın ardınca Finlandiyanın Avropa Şurasının Nazirlər Komitəsinə sədrliyinə yekun vurulub və sədrlik növbəti altı ay üçün Fransaya keçib.

**AZƏRTAC**

# Milli İncəsənət Muzeyinin təmirdən çıxmış yeni binasının ictimaiyyət üçün açılışı olub

**Mayın 17-də Azərbaycan Milli İncəsənət Muzeyinin Niyazi, 9 ünvanında yerləşən, təmirdən çıxmış yeni korpusunun ictimaiyyət üçün açılış mərasimi keçirilib.**

AZƏRTAC xəbər verir ki, açılış mərasimində çıxış edən Mədəniyyət naziri Əbülfəs Qarayev hər il ənənəvi olaraq ölkəmizdə də qeyd olunan 18 may - Beynəlxalq Muzeylər Gününün əhəmiyyətindən söz açıb. Bildirib ki, bu münasibətlə hər il bütün muzeylərdə "açıq qapı" günü təşkil olunur. Bu il də ənənəyə sadiq qalaraq bütün muzeylərdə "açıq qapı" günü təşkil olunacaq, gecə saatlarına qədər pulsuz xidmət göstərəcəklər.



Ötən il Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyevanın iştirakı ilə Azərbaycan Milli İncəsənət Muzeyinin üçüncü korpusunun təmirdən sonra istifadəyə verildiyini deyən nazir, muzeydə ümumilikdə aparılmış təmir, bərpa və bədii tərtibat işlərinin tamamlandığını qeyd edib.

Muzey haqqında məlumat verən Ə.Qarayev vurğulayıb ki, bu məkan son illər ərzində bərpa və inşa edilən ən müasir avadanlıqlarla təchiz edilmiş ekspozisiyaya malikdir. Burada xüsusi bərpa laboratoriyası mövcuddur, ən müasir mühafizə sistemləri ilə təmin edilib.

Muzey silsiləvi şəklində iki qədim memarlıq abidəsini birləşdirən müasir korpusdan ibarət ərazini tutur.

"Milli İncəsənət Muzeyi dünya və Azərbaycan mədəniyyətini nümayiş etdirmək üçün ən uğurlu məkanlardan biridir. Burada insanlar dünya mədəniyyəti ilə yaxından tanış olmaq imkanı əldə edirlər. Sevindirici haldır ki, bu gün ölkəmizin bütün regionlarında tarix-diyarşünaslıq muzeyləri fəaliyyət göstərir. Bütün bunlar dövlətimizin bu sahəyə olan diqqət və qayğısının bariz nümunəsidir", - deyə Ə.Qarayev söyləyib.

Azərbaycan Milli Elmlər Akademiyası (AMEA) Milli Azərbaycan Tarixi Muzeyinin direktoru, akademik Nailə Vəlixanlı, Heydər Əliyev Mərkəzinin Heydər Əliyev irsinin tədqiqi və təbliği departamentinin direktoru Məhəbbət Mehdiyeva və AMEA-nın Arxeologiya və Etnoqrafiya İnstitutunun direktoru Maisə Rəhimova çıxış edərək hər il Beynəlxalq Muzeylər Günü münasibətilə ölkəmizdə keçirilən silsilə tədbirlərdən, reallaşan layihələrdən və dövlət tərəfindən mədəniyyət və incəsənət sahəsinə göstərilən diqqət və qayğıdan söz açıblar.

Sonra Mədəniyyət Nazirliyinin sifarişi ilə hazırlanmış və ilk dəfə ölkə ərazisində yerləşən bütün muzeylər haqqında məlumatları özündə cəmləşdirən "Museum.az" saytının təqdimatı olub. Məlumat verilib ki, saytın sadə, eyni zamanda, zövqlə hazırlanmış dizaynı istifadəçilərə təqdim olunan məlumatların daha rahat əldə olunması üçün geniş imkanlar yaradır.

İstifadəçilərin rahatlığı üçün gələcəkdə müasir veb - tendensiyalar da nəzərə alınaraq, saytın mobil versiyası və tətbiqetmələrinin də hazırlanması nəzərdə tutulub.

Sonda muzey işi sahəsində səmərəli fəaliyyətinə görə bir sıra mədəniyyət xadiminə nazirlik tərəfindən təşəkkürnamələr təqdim edilib.

**AZƏRTAC**

## AKADEMİK AKİF ƏLİZADƏ:

# “NÖVBƏTİ STRATEJİ HƏDƏFİMİZ 2020-2025-ci İLLƏRDƏ ÖLKƏMİZİN İNTELLEKTUAL İNKİŞAF KONSEPSİYASINI HƏYATA KEÇİRMƏKDİR”



**– Akif müəllim, öncə müsahibəyə vaxt ayırdığınıza görə Sizə dərin təşəkkürümüzü bildiririk. Məlum olduğu kimi, may ayının əvvəlində ölkənin elm və təhsil ictimaiyyətinin iştirakı ilə Azərbaycan Milli Elmlər Akademiyasının illik Ümumi yığıncağı keçirildi. Respublikada elmi tədqiqatların əsas mərkəzi olan Akademiya 2018-ci ildəki elmi və elmi-təşkilati fəaliyyəti ilə bağlı geniş hesabat verdi. Hesabat yüksək qiymətləndirilərək qəbul edildi. Bu münasibətlə Sizi təbrik edirik. Hesabat ili ərzində Akademiyanın əsas fəaliyyət istiqamətləri, mühüm hesab etdiyiniz nailiyyətlər oxucularımız üçün də maraqlı olardı.**

– Əvvəlcə mən də öz adımdan, elmi ictimaiyyət adından Akademiyaya belə həssas münasibətə və ayırdığınız diqqətə görə sizə, qəzetinizin rəhbərliyinə və yaradıcı kollektivinə öz dərin təşəkkürümü bildirirəm.

Həqiqətən də, ötən hesabat ili Akademiya üçün uğurlu il kimi xarakterizə oluna bilər. Belə ki, son illər ərzində elmi fəaliyyət sahəsində həyata keçirilən çoxsahəli islahatlar ötən hesabat ilində də uğurla davam etdirilmiş, istər fundamental elmi tədqiqatlar sahəsində, istərsə də elmi işin müasir tələblər səviyyəsində təşkili istiqamətində bir sıra əhəmiyyətli nəticələr, mühüm nailiyyətlər əldə edilmişdir. Konkret istiqamətlər üzrə faktlara keçməzdən əvvəl, ilk növbədə onu qeyd etmək istərdim ki, əldə etdiyimiz bütün nailiyyətlər, uğurlar Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə respublikada həyata keçirilən dövlət siyasətinin, xüsusən elmi fəaliyyət sahəsində ardıcıl olaraq gerçəkləşdirilən əməli tədbirlərin nəticəsidir. Elmin inkişaf etdirilməsini dövlət siyasətinin mühüm prioritetlərindən biri hesab edən cənab İlham Əliyev hər il olduğu kimi, 2018-ci ildə də elmlə bağlı bir sıra mühüm qərarlar qəbul etmişdir. Cənab Prezidentimiz öz çıxışlarında dəfələrlə qeyd etmişdir ki, ölkəmizin modernləşdirilməsi və intellektual inkişaf modelinə əsaslanan biliklər cəmiyyətinin qurulması, neft kapitalının insan kapitalına çevrilməsi dövlət siyasətinin mühüm strateji hədəflərini təşkil edir. Bu, ilk növbədə elmin inkişafını, onun müasir dünyanın çağırışlarına və ölkənin sosial-iqtisadi inkişaf istiqamətlərinə cavab verən fəaliyyət sahəsinə çevrilməsini zəruri edir. Həm əvvəlki illərdə, həm də ötən hesabat ilində Akademiyada həyata keçirilən kompleks tədbirlərin əsas ideya leytmotivi qeyd etdiyim bu istiqamətlər olmuşdur.

Sualınıza gəldikdə isə, 2018-ci ildə Azərbaycan Milli Elmlər Akademiyasının əsas fəaliyyət istiqamətlərini müxtəlif elm sahələri üzrə fundamental araşdırmaların müasir tələblər səviyyəsinə yüksəldilməsi, xüsusi elmi prioritetlər üzrə tədqiqatların genişləndirilməsi, elmi-texniki potensialın inkişaf etdirilməsi, beynəlxalq elmi əlaqələrin inkişafı, elm, təhsil və iqtisadiyyat arasında əlaqələrin gücləndirilməsi, innovativ fəaliyyətin müasir tələblər səviyyəsində yenidən qurulması, yüksəkixtisaslı kadrların hazırlanması, respublika üzrə elmi-tədqiqat fəaliyyətinin əlaqələndirilməsi, elmin populyarlaşdırılması, elmi potensialın ölkənin sosial-iqtisadi problemlərinin həllinə yönəldilməsi və digər istiqamətlər təşkil etmişdir.

Bu istiqamətlər içərisində sonuncu üzərində xüsusi olaraq dayanmaq istərdim. 2018-ci ildə AMEA-nın elmi və elmi-təşkilati fəaliyyətinin əsas strateji hədəflərindən biri Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin AMEA-nın qarşısında qoyduğu vəzifələrin və müəyyən etdiyi prioritetlərin həyata keçirilməsi olmuşdur. Belə ki, 2018-ci ildə müvafiq elmi-tədqiqat müəssisələrində elmi potensialın ölkənin müdafiə, enerji, ekoloji və ərzaq təhlükəsizliyinin təmin edilməsi istiqamətlərinə yönəldilməsi əsas hədəflərdən biri olmuşdur. Həmçinin innovasiya fəaliyyətinin genişləndirilməsi, kosmik tədqiqatların gücləndirilməsi, kimya sənayesinin yeni əsaslarla formalaşdırılması istiqamətində də bir sıra tədbirlər həyata keçirilmişdir. Məlumdur ki, cənab Prezident ictimai və humanitar elm sahələrində də bir sıra prioritetlər müəyyənləşdirmişdir. Bunlar, əsasən, Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun qorunması və inkişaf etdirilməsi, Azərbaycan tarixinin obyektiv elmi prinsiplərlə araşdırılması, ölkənin demoqrafik vəziyyətinin respublikanın sosial-iqtisadi inkişaf perspektivləri baxımından kompleks öyrənilməsi istiqamətlərini əhatə edir. Alimlərimiz 2018-ci ildə bu istiqamətlər üzrə müvafiq araşdırmalar aparmış, bir sıra konkret təkliflər müəyyənləşdirmişlər. Xüsusən, multidissiplinar xarakterli elmi problemlər üzrə AMEA institutlarının birgə icra etdiyi uzunmüddətli elmi-tədqiqat proqramlarında Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müəyyən etdiyi prioritet istiqamətlər əsas götürülmüşdür.

**– Bir halda ki, söhbət dövlət tapşırıqlarının icrasından düşdü, milli iqtisadiyyatın inkişafı baxımından xüsusi əhəmiyyətə malik olan “Strateji yol xəritələri” üzərində də dayanmaq istərdik. Bizə bəllidir ki, Akademiya bu istiqamətdə xüsusi fəaliyyəti ilə seçilir.**

– Tamamilə doğrudur. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin “Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələrinin təsdiq edilməsi haqqında” Fərmanının icrası 2018-ci ildə də Akademiya tərəfindən uğurla davam etdirilmişdir.

“Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi”nin icrası üzrə ətraf mühitin və biomüxtəlifliyin qorunmasına, ekoloji təmiz məhsul istehsalının təşkilinə, ölkənin aqrar sektorundakı bir çox problemlərin həllinə yönəlmiş tədqiqatlar, əsasən, Akademiyanın Biologiya və Tibb Elmləri Bölməsinə daxil olan institutlarda uğurla həyata keçirilmişdir.

“Azərbaycan Respublikasının neft və qaz sənayesinin inkişafına dair Strateji Yol Xəritəsi”nin icrası ilə bağlı 2018-ci ildə AMEA-nın Yer Elmləri Bölməsinə daxil olan elmi müəssisələrdə, xüsusən də Geologiya və Geofizika, Neft və Qaz institutlarında bir sıra tədqiqatlar aparılmış, tədqiqatların nəticələri elmi konfrans və seminarlarda müzakirə edilmişdir.

“Azərbaycan Respublikasında ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsi”nin icrası üzrə Azərbaycan Milli Elmlər Akademiyasının İdarəetmə Sistemləri, Şərqşünaslıq, Coğrafiya və İqtisadiyyat institutlarında, həmçinin Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı və Milli Azərbaycan Tarixi muzeylərində müvafiq işlər görülmüşdür. 2018-ci ildə ölkəmizin qeyri-neft sektorunun inkişafında getdikcə daha əhəmiyyətli rol oynayan turizm sahəsinin dəstəklənməsi, tədqiqi və təbliği AMEA-da diqqət mərkəzində saxlanılmışdır.

Hazırda AMEA “Strateji yol xəritələri”nin icrası ilə bağlı digər müvafiq dövlət qurumları və ictimai təşkilatlarla fəal əməkdaşlıq edir.

**– Sizin Ümumi yığıncaqdakı hesabat məruzənizdə xüsusi diqqət yetirdiyiniz məsələlərdən biri elmmetrik bazalarla bağlı oldu. Siz qeyd etdiniz ki, müasir şəraitdə elmi fəaliyyətin qiymətləndirilməsində elmmetrik yanaşmalar, beynəlxalq elmi bazalardakı dəqiq göstəricilər mühüm yer tutur. Onu da xüsusi vurğuladınız ki, 2018-ci ildə bu sahədə Azərbaycan elmi bir sıra uğurlara imza atmışdır. Bu barədə oxucularımıza bir az ətraflı məlumat verməyinizi xahiş edərdik.**

– Bu gün sürətlə qloballaşan və virtuallaşan dünyada elmi fəaliyyətin dəyərləndirilməsinin ən mühüm meyarlarından biri elmmetrik yanaşmalar hesab olunur. Çox sevindirici haldır ki, 2018-ci ildə bu sahədə bir sıra uğurlarımız vardır. Əvvəlcə məlumat üçün onu qeyd edim ki, hazırda İKT-nin sürətli inkişaf etdiyi bir şəraitdə dünyada müxtəlif elmi bazalar fəaliyyət göstərir. Lakin onların içərisində dünya elmi ictimaiyyətinin birmənalı olaraq qəbul etdiyi əsas bazalar Web of Science və Scopus hesab olunur. Əvvəllər Azərbaycan alimlərinin bu bazalara çıxışı sahəsində olduqca böyük məhdudiyyətlər var idi. Müəyyən danışıqlardan sonra 2016-cı ildə Clarivate Analytics təşkilatı ilə Saziş imzalamağa nail olduq. Akademiyanın əməkdaşları bu bazalardan sərbəst istifadə hüququ əldə etdilər. Bu, Azərbaycan elminin beynəlxalq aləmə inteqrasiyası sahəsində olduqca mühüm bir addım idi.

Oxucularda aydın təsəvvür yaratmaq üçün qeyd edim ki, 1975-2018-ci illər ərzində Web of Science bazasına Azərbaycanın elmi və ali təhsil müəssisələrindən 15 mindən çox elmi əsər daxil olmuşdur. Bu elmi əsərlərin də 11 mindən çoxu, yəni 73%-i məhz AMEA-nın payına düşür.

Cari hesabat ilində, 2018-ci ildə isə Web of Science bazasına AMEA-dan 776 elmi əsər daxil olmuş və bu əsərlərə 1042 istinad olunmuşdur. 2013-cü illə müqayisədə bu bazada AMEA-nın elmi əsərlərinin sayı 2 dəfədən çoxdur, istinadlarının sayı isə həmin ilin müvafiq dövrü ilə müqayisədə 3 dəfə artmışdır.

Beynəlxalq elmi bazalardakı göstəricilərimizlə bağlı bizim xüsusi qürur duyduğumuz bir məqam ondan ibarətdir ki, 2018-ci ildə Web of Science bazasına daxil olan elmi əsərlərin sayına görə Azərbaycan ilk dəfə olaraq Cənubi Qafqaz ölkələri arasında birinci yerə yüksəlmişdir. Bundan əlavə, dünyanın nüfuzlu elmi bazalarından sayılan Scopusda isə AMEA-nın elmi reytinqi həm Cənubi Qafqaz ölkələrinin, həm də Orta Asiya ölkələrinin akademiyaları sırasında birinci yerə yüksəlmişdir. Qeyd olunan bu göstəricilər Azərbaycan elminin reytinqi baxımından olduqca mühüm əhəmiyyətə malikdir. Əgər xatırlayırsınızsa, cənab Prezidentimiz bir neçə il bundan əvvəl belə bir bəyanat səsləndirmişdir ki, Azərbaycan elm sahəsində də Cənubi Qafqazın lider dövlətinə çevrilməlidir. Əslində, qeyd etdiyimiz bu göstəricilər, əldə etdiyimiz bu nailiyyətlər cənab Prezidentin çağırışına ən layiqli bir töhfədir.

Qeyd edim ki, biz Azərbaycanda nəşr olunan jurnalların beynəlxalq bazalara daxil olması məsələsinə də olduqca xüsusi önəm veririk. Son 5 ildə AMEA-nın 4 elmi jurnalı Web of Science bazasına, 2 jurnalı isə Scopus bazasına daxil olmuşdur. Əlbəttə, bunu yetərli hesab etmirik. Hazırda Akademiyada bu istiqamətdə kompleks işlər davam etdirilməkdədir.

**– Dediklərinizdən belə aydın olur ki, hesabat ilində beynəlxalq elmi əməkdaşlığın inkişafı Akademiyanın prioritet fəaliyyət istiqamətlərindən birini təşkil etmişdir.**

– Tamamilə doğrudur. Biz beynəlxalq elmi əməkdaşlığa xüsusi önəm veririk. Birincisi, onu qeyd edim ki, elm heç bir halda izolyasiya olunmuş, qapalı mühitdə inkişaf edə bilməz. Onun inkişafı üçün açıq sosial sistemdə sərbəst fəaliyyət əsas şərtdir. İkincisi, Azərbaycan elmi uzun illər ərzində sovet elm sisteminin tərkib hissəsi kimi Avropa və Amerika elmi mərkəzləri, universitetləri ilə birbaşa əlaqələr qura bilməmişdi. Elmi-innovativ fəaliyyəti ilə hazırda dünyada öncül sıralarda olan Şərqi Asiya ölkələri ilə ümumiyyətlə, heç bir əlaqə olmamışdı. Bu əlaqələr son onilliklərdə qurulmaqdadır.

Əvvəlki illərdə olduğu kimi, ötən hesabat ilində də Azərbaycan elminin beynəlxalq əlaqələri əhəmiyyətli dərəcədə genişlənmişdir. Azərbaycan alimləri tərəfindən bu istiqamətdə “Horizon - 2020” layihəsi üzrə fəal iş aparılmış, həmçinin müxtəlif texnologiyaların tədqiqi üzrə NATO ilə əməkdaşlıq istiqamətində çox əhəmiyyətli irəliləyişlər əldə olunmuşdur. Texnologiyaların inkişafı ilə əlaqədar qlobal problemlərin tədqiqi və elmi nailiyyətlərin tətbiqi istiqamətində bir sıra nüfuzlu beynəlxalq təşkilatlarla müzakirələr aparılmış, səmərəli münasibətlər qurulmuşdur. Bu gün beynəlxalq elmi əməkdaşlığa nümunə olaraq fiziklərin Avropa Nüvə Tədqiqatları Mərkəzi və Dubnadakı Birləşmiş Nüvə Tədqiqatları İnstitutunda, geoloq və geofiziklərin Massaçusets Texnologiya İnstitutundakı elmi layihələrdə iştirakını və başqa iri Avropa layihələrini göstərə bilərik.

Ötən il beynəlxalq elmi əlaqələrin genişləndirilməsi sahəsində atılan ən mühüm addımlardan biri də elmi-tədqiqat müəssisələrində xarici alimlərin iştirakı ilə birgə meqalayihələrin həyata keçirilməsi olmuşdur. 2018-ci ildə AMEA-nın alimləri bir sıra təşkilatların qrant müsabiqələrində iştirak edərək 220 qrant qazanmışlar.

Son illərdə Akademiyada ABŞ-ın, Almaniyanın, İtaliyanın nüfuzlu elmi mərkəzləri ilə birlikdə xeyli sayda beynəlxalq laboratoriyalar yaradılmışdır.

**– Elm və təhsilin inteqrasiyası Akademiyada ən mühüm prioritet istiqamətlərdəndir. Hətta belə qeyd edirlər ki, elm və təhsilin inteqrasiyası Akif Əlizadənin islahatlar konsepsiyasının fundamental ideya əsasını təşkil edir. Sonuncu Ümumi yığıncaqda Siz bu məsələyə münasibətdə əvvəlkilərdən fərqli yeni mövqe nümayiş etdirdiniz. Bəyan etdiniz ki, Akademiya və universitetlər nəinki inteqrasiya etməlidir, ümumiyyətlə, onlar arasında bütün sədlər, sərhədlər, maneələr aradan qaldırılmalıdır!**

– Bu yalnız mənim mövqeyim deyil. Bunu bütün sivil ölkələrin təcrübəsi təsdiq edir. Biz altı il bundan əvvəl islahatlara başlayarkən müasir zamanın tələblərinə müvafiq olaraq, elm və təhsilin inteqrasiyasını əsas prioritetlərdən biri olaraq qəbul etdik. Ən böyük uğurlarımızdan biri o oldu ki, bilavasitə cənab Prezidentimiz İlham Əliyevin dəstəyi sayəsində Akademiyada magistraturanın açılmasına nail olduq. Yəqin ki, heç kim məndən inciməz, indi Akademiyanın magistraturası bu səviyyə üzrə respublikada ən nüfuzlu təhsil ocağıdır. Akademiyada magistraturaya qəbulun olduqca yüksək müsabiqə şərtləri vardır. Biz bu imici az bir müddət ərzində qazanmağa nail olduq. Nəyin hesabına? Məhz bu təhsil səviyyəsi modelində elm və təhsilin uğurlu inteqrasiyasını yaratmaq hesabına. Bunu başqa təhsil səviyyələri üzrə etmək mümkündürmü? Əlbəttə, mümkündür!

Biz yüksəkixtisaslı kadr hazırlığı sahəsində olduqca mühüm təhsil pilləsi olan doktorantura təhsilinin təkmilləşdirilməsi istiqamətində də ardıcıl islahatlar həyata keçirməkdəyik. Mən detallara varmaq istəmirəm. Yalnız bir mühüm məqamı qeyd etmək istəyirəm ki, doktorantura təhsilinin təkmilləşdirilməsi üçün Azərbaycan Milli Elmlər Akademiyası, Azərbaycan Respublikası Təhsil Nazirliyi və 9 universitetin, eləcə də Avropanın beş aparıcı universitetinin iştirak etdiyi “Nizami” layihəsi həyata keçirilmişdir. Layihənin əsas məqsədi Azərbaycanda doktorantura təhsilinin təşkili qaydalarını yenidən hazırlamaq, ixtisas təsnifatını Avropada mövcud olan təsnifata uyğunlaşdırmaqdır. Layihə çərçivəsində Azərbaycanda doktorantura təhsilinin Avropa ali təhsil məkanının tələblərinə uyğun təkmilləşdirilməsi məqsədilə bir sıra təkliflər və tövsiyələr hazırlanmışdır. Bununla əlaqədar Akademiyanın Elm və təhsil baş idarəsi tərəfindən dünya təcrübəsinə əsaslanaraq doktorant və ya dissertant, elmi rəhbər və elmi müəssisə arasında onların hüquq və vəzifələrini müəyyən edən nümunəvi fərdi müqavilənin layihəsi hazırlanmışdır.

Bundan əlavə, Azərbaycan Respublikası Prezidentinin “Azərbaycan Milli Elmlər Akademiyasının gənc alimlərinin Avropanın elmi mərkəzlərində doktorantura təhsilinin maliyyələşdirilməsi haqqında” Sərəncamının icrası ilə əlaqədar son illər AMEA-nın xeyli sayda gənc alimi Avropanın müxtəlif elmi mərkəzlərinə göndərilmişdir. Bu proses AMEA-da fasiləsiz olaraq davam etdirilir.

2018-ci ildə AMEA-da respublikanın ali təhsil müəssisələrinin magistrant və doktorantlarına AMEA-nın yüksək elmi potensiala malik alimlərinin elmi rəhbər olaraq cəlb edilməsi istiqamətində müvafiq tədbirlər həyata keçirilmiş, ümumilikdə 400-dən çox alim ali təhsil müəssisələrində tədris prosesində yaxından iştirak etmiş, magistrant və doktorantların dissertasiya işlərinə rəhbərlik etmişlər.

Hesabat ilində AMEA-nın tanınmış alimləri Azərbaycan Dövlət Neft və Sənaye Universitetində, Bakı Dövlət Universitetində, Azərbaycan Dillər Universitetində, Moskva Dövlət Universitetinin Bakı filialında, Azərbaycan Diplomatik Akademiyasında, Bakı Ali Neft Məktəbində, Gəncə Dövlət Universitetində, Almaniyanın Rostok Universiteti, Pekin Xarici Dillər Universiteti, Kazan Milli Texnoloji Tədqiqat Universiteti, Sumqayıt Dövlət Universiteti, Texniki Humanitar Liseydə, Siyasi Psixologiya Mərkəzində və digər təhsil müəssisələrində ustad dərsləri keçmişlər.

**– Akif müəllim, bütün istiqamətlər üzrə həyata keçirilən islahatların məqsədi ondan ibarətdir ki, sonda daha yeni fundamental elmi nəticələrin əldə edilməsinə nail olunsun. Yeni fundamental elmi araşdırmalar və onların mühüm elmi nəticələri Akademiya üçün mühüm əhəmiyyət kəsb edən məsələdir. Ümumi yığıncaqda Siz 2018-ci ildə əldə olunmuş bir sıra mühüm elmi nəticələri qeyd etdiniz.**

– Hər il olduğu kimi, ötən il də Akademiyanın müxtəlif elmi-tədqiqat müəssisələrində bir sıra mühüm elmi nəticələr əldə edilmişdir. Bəlkə də geniş oxucu kütlələri üçün mürəkkəb terminoloji ifadələr bir az yorucu təsir bağışlaya bilər. Ona görə də elmi mahiyyətini çox da dərindən izah etmədən Azərbaycan elminin öyünə biləcəyi bir neçə elmi nəticəni qeyd etmək istərdim.

2018-ci ildə Azərbaycan fizikləri tərəfindən laylı kristal əsasında nəzəri və eksperimental işlər nəticəsində materiyanın yeni topoloji xüsusiyyəti, yeni antitopoloji izolyatorun mövcudluğu isbat edilmişdir. Riyaziyyatçılarımız tərəfindən isə yüksək heterogen əmsalı eliptik tənliklər üçün birinci tərtib yığılan çoxmiqyaslı metod işlənilib və ilk dəfə olaraq çoxlu sayda miqyasdan və kontrasdan asılı olmayan hesablama üsulu hazırlanmışdır.

Yaşadığımız əsr İKT əsridir. Ötən il bu sahədə də uğurlarımız olmuşdur. Alimlərimiz tərəfindən elektron texnoloji mühitlərdə Big Data resurslarının intellektual analizi və informasiya təhlükəsizliyinin təmin olunması üçün bir sıra modellər və alqoritmlər işlənib hazırlanmışdır.

Hesabat ilində kimyaçı alimlərimiz bioloqlarla birlikdə bir sıra yeni koordinasion birləşmələri sintez etmiş və onların quruluşunu öyrənmişlər. Müəyyən olunub ki, alınan maddələr bəzi metabolik fermentlərə qarşı inhibitor xüsusiyyətlərini özündə daşıyır və ola bilər ki, onlar bir potensial preparat kimi gələcəkdə həm alzheimer xəstəliyinə, həm də qlaukoma xəstəliyinə qarşı tətbiq oluna bilərlər.

Hesabat ilində geoloqlarımız tərəfindən isə ilk dəfə olaraq Rusiya, Gürcüstan, Avropa, İsveçrə alimləri ilə birgə tədqiqatlar nəticəsində Qafqazın tektonik geodinamik xəritəsi tərtib olunmuşdur.

Ötən il biofizika istiqamətində də maraqlı bir nəticə alınmışdır. Alimlərimiz zülallarda yaranan sərbəst radikalların rekombinasiyası, onlarda müəyyən temperatur intervalına uyğun gələn iki molekulyar dinamikanı aşkar etmişlər. Hər iki tip dinamikada iştirak edən sərbəst radikalın mənşəyi göstərilmişdir. Botaniklərimiz isə DNT vasitəsilə bəzi endemik Qafqaz növlərinin filogeniyasını tərtib etmişlər.

Molekulyar biologiya sahəsində də maraqlı tədqiqatlar aparılmışdır. İzotropik temperatur faktorunun statistik analiz modeli qurulmuşdur. Zülal quruluşlarının volidsiya metodu işlənilmiş və proqram təminatı hazırlanmışdır. Əlbəttə, mühüm elmi nəticələrimiz çoxdur. Mən onların hamısını burada sadalamaq istəmirəm.

**– Siz, təbiət və texnika elmləri sahəsində mühüm elmi nəticələrdən bəhs etdiniz. Yəqin ki, ictimai və humanitar elm sahələri üzrə də qeyd olunmalı nailiyyətlər vardır.**

– Əlbəttə. Hər il olduğu kimi, 2018-ci ildə də ictimai və humanitar elmlər sahəsində bir sıra nailiyyətlər əldə edilmişdir. Bunlardan ilk növbədə Ədəbiyyat İnstitutunda “Ədəbiyyatda Heydər Əliyev obrazı: tarixi gerçəklikdən ideala” monoqrafiyasını qeyd etmək istərdim. Monoqrafiyada ilk dəfə olaraq ulu öndər Heydər Əliyevin ədəbiyyatda bədii obrazının yaradılması məsələlərindən söz açılmış, görkəmli sənətkarların və yeni ədəbi nəsillərin ədəbiyyatın müxtəlif janrlarında bu istiqamətdəki yaradıcılıq axtarışları geniş tədqiq və təhlil olunmuş, elmi-nəzəri ümumiləşdirmələr aparılmışdır. Məlumdur ki, bu il xalqımızın ümummilli lideri Heydər Əliyevin respublikada hakimiyyətə gəlməsinin 50 illik yubileyidir. Bu əsər yubileyə olduqca layiqli bir töhfədir.

Humanitar və ictimai elmlər sahəsində ötən ilin mühüm elmi nəticələrindən biri kimi akademik Ramiz Mehdiyevin “Qriqorian kilsəsi Səfəvilər dövlətinə qarşı casusluq aləti kimi” kitabının nəşrini xüsusi qeyd etmək istərdim. Kitabda Qərb dövlətlərinin əlində Səfəvilər dövlətinə qarşı casusluq, şantaj və separatizm vasitəsinə çevrilmiş Qriqorian kilsəsinin kəşfiyyat və siyasi-ideoloji fəaliyyəti tutarlı tarixi materiallar əsasında elmi cəhətdən əsaslandırılmışdır.

Ötən il tarixçi alimlərimizin də uğurları diqqətəlayiq olmuşdur. Tarixçi alimlərimiz tərəfindən təkzibolunmaz ilkin mənbələr əsasında İrəvan xanlığının Azərbaycanın ayrılmaz tərkib hissəsi olduğu sübut edilmiş, İrəvan xanlığı əhalisinin etnik tərkibi ilkin mənbələr əsasında araşdırılmış və erməni müəlliflərinin xanlığın xristian əhalisi barədə uydurma fikirləri ifşa olunmuşdur.

İqtisadçı alimlərimizin də bir uğurunu qeyd etmək istərdim. İqtisadiyyat İnstitutunda alimlərimiz tərəfindən “Post-neft iqtisadiyyatının meyarları” adlı elmi-tədqiqat işində ilk dəfə olaraq, post-neft iqtisadiyyatına keçidin meyarları ifadə olunmuşdur. Bu göstəricilər əsas götürülməklə Azərbaycanda post-neft iqtisadiyyatı quruculuğunun mümkün ssenariləri hazırlanmışdır.

İctimai və humanitar elmlərdən danışarkən bir məqam üzərində də dayanmaq istərdim. O da akademik Nərgiz Paşayevanın Azərbaycan mədəniyyətinin, görkəmli mədəniyyət xadimlərinin irsinin öyrənilməsi və təbliği istiqamətində gördüyü işlərdir. Nərgiz xanım Paşayevanın rəhbərliyi ilə Oksford Universitetində Nizami Gəncəvi Mərkəzi yaradılmışdır. Bu Mərkəz Azərbaycan elminin və mədəniyyətinin beynəlxalq miqyasda təbliği istiqamətində olduqca mühüm işlər həyata keçirməkdədir. Bu fəaliyyət Azərbaycan elminin və mədəniyyətinin tədqiqi və təbliği modelinin, ümumiyyətlə Azərbaycanın Avropaya və sivil dünyaya olduqca uğurlu bir təqdimatıdır.

**– AMEA-nın elmi-innovativ fəaliyyət sahəsində hansı yeniliklər var?**

– Yuxarıda da qeyd etdiyimiz kimi, innovativ fəaliyyət müasir şəraitdə hər bir inkişaf etmiş ölkə üçün prioritet fəaliyyət sahəsidir. 2018-ci ildə də innovativ fəaliyyət sahəsində AMEA-da olduqca mühüm tədbirlər həyata keçirilmişdir. Hesabat ilində AMEA Yüksək Texnologiyalar Parkında innovasiya məhsullarının və yüksək texnologiyaların, həmçinin strateji əhəmiyyətli məhsulların hazırlanması, işlənilməsi və ya təkmilləşdirilməsi məqsədilə elmi tədqiqatların və təcrübə-konstruktor işlərinin aparılması, onların nəticələrinin sənaye, xidmət və digər sahələrdə tətbiqi istiqamətində mühüm nəticələr əldə edilmişdir. 2018-ci ildə YTP-nin rezidentlərinin sayı 11-ə çatmışdır.

AMEA-da ölkənin müdafiə qüdrətinin gücləndirilməsi ilə bağlı strateji əhəmiyyətli işlərin daha səmərəli təşkili üçün AMEA Rəyasət Heyətinin nəzdində Strateji Elmi Tədqiqatlar Mərkəzi yaradılmışdır. AMEA-nın aidiyyəti elmi müəssisələrinin mütəxəssisləri cəlb edilməklə yaradılmış strukturlar tərəfindən ötən dövr ərzində bir sıra strateji əhəmiyyət kəsb edən hərbi-mülki və müdafiə xarakterli layihələr icra edilmişdir.

Azərbaycanın müdafiə qüdrətinin gücləndirilməsi istiqamətində Yüksək Texnologiyalar Parkının rezidentləri bir sıra strateji əhəmiyyətli layihələr həyata keçirmişlər.

Həmçinin Azərbaycan Respublikasının Müdafiə Nazirliyi və digər aidiyyəti dövlət qurumları ilə AMEA-nın Neft-Kimya Prosesləri, Kataliz və Qeyri-üzvi Kimya, Aşqarlar Kimyası, Polimer Materialları institutları ölkənin müdafiə qüdrətinin gücləndirilməsi ilə bağlı xüsusi işlər yerinə yetirmişlər.

**– Ölkəmizdə, hazırda ən həssas mövzulardan biri də alimlərin, xüsusən gənc alimlərin sosial vəziyyətinin yaxşılaşdırılmasıdır. Hesabat ilində bu istiqamətdə hansı tədbirlər həyata keçirilmişdir?**

– Həqiqətən də, sosial məsələ olduqca həssas bir mövzudur. AMEA əməkdaşlarının sosial problemlərinin həlli istiqamətində həyata keçirilən tədbirlər 2018-ci ildə də davam etdirilmiş, xüsusən alimlərin güzəştli mənzil təminatı sahəsində bir sıra işlər gerçəkləşdirilmişdir. Abşeron rayonunun Saray qəsəbəsinin ərazisində 10 ədəd çoxmərtəbəli yaşayış evlərinin, məktəb, bağça və digər sosial və məişət obyektlərinin tikintisinə başlanılmışdır. Hazırda AMEA əməkdaşlarının bu evlərdən mənzil almasını asanlaşdırmaq məqsədilə ipoteka krediti ayrılması üçün tədbirlər həyata keçirilir. Həmçinin AMEA-da təhsil alan doktorant və magistrlərin tədris müddəti ərzində yaşayış yeri ilə təmin edilməsi istiqamətində də müvafiq tədbirlər həyata keçirilmişdir.

Hesabat ilində AMEA əməkdaşlarının istirahətinin təşkili məqsədilə AMEA-nın Nəsrəddin Tusi adına Şamaxı Astrofizika Rəsədxanasının ərazisinin yaxınlığında yerləşən istirahət mərkəzi istifadəyə verilmişdir. Hazırda AMEA-nın “Xızı” Kənd Təsərrüfatı İstehsalat Kompleksinin istifadəsində olan torpaq sahəsindən bağçılıq-bostançılıqla məşğul olmaq istəyən AMEA əməkdaşlarının hər birinə torpaq sahəsi ayrılması istiqamətində tədbirlər həyata keçirilməkdədir. Bir sözlə, sosial sahədə işlər davam etdirilməkdədir.

**– Akademiyanın qarşısında duran vəzifələr barədə fikirlərinizi bilmək də maraqlı olardı.**

– Gələcək planlarla bağlı mən diqqəti bir məqama yönəltmək istəyirəm. Cəmi ikicə ildən sonra xalqımızın ümummilli lideri Heydər Əliyevin memarı olduğu müasir Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpa olunmasının 30 illik yubileyi tamam olur. Bu, olduqca önəmli bir tarixdir. Mən hesab edirəm ki, bu tarix ölkəmizin sosial-iqtisadi, mədəni-mənəvi inkişafına məsul olan hər bir qurum, hətta ayrılıqda götürülən hər bir vətəndaş üçün Vətən və xalq qarşısında, öz vicdanı qarşısında hesabat və mənəvi cavabdehlik məqamıdır. Yəqin ki, bu mənəvi cavabdehlik missiyasından doğaraq hər bir kəs özünə belə bir sual verməlidir: mən müstəqil Azərbaycanın inkişafına nə töhfə verə bildim? Həm də bu sual üzərində elə bu gündən başlayaraq düşünməyin vaxtıdır. Qeyd edim ki, müstəqillik illərində Azərbaycan elmi ağır tənəzzül mərhələsini arxada qoyaraq inkişaf magistralına qədəm qoymağa nail ola bildi. Əgər xatırlayırsınızsa, biz, cənab Prezident tərəfindən təsdiq edilmiş “2009-2015-ci illərdə Azərbaycan elminin inkişafı üzrə Milli Strategiya” əsasında elmi infrastrukturun modernləşdirilməsi, onun maddi-texniki bazasının gücləndirilməsi, modern elmi çağırışlara uyğun elmi prioritetlərin müəyyənləşdirilməsi, beynəlxalq əlaqələrinin inkişaf etdirilməsi və s. istiqamətlərdə kompleks tədbirlər həyata keçirdik. Sonda gördüyümüz işlər barədə dövlətimiz qarşısında geniş hesabat verdik. Hazırda “Azərbaycan 2020: Gələcəyə baxış” İnkişaf Konsepsiyasının tələbləri əsasında intellektual inkişaf modelinə əsaslanan biliklər cəmiyyətinin qurulması, biliklər iqtisadiyyatının bərqərar edilməsi, qeyri-neft sektorunun inkişafına elmi dəstək verilməsi, yüksək texnologiyaların inkişafı, innovativ fəaliyyətin gücləndirilməsi istiqamətində mühüm işlər həyata keçirilməkdədir. Yaxın gələcəkdə bu istiqamətdə də strateji hədəflərə nail olunacaqdır. İndi daha irəliyə baxmaq, növbəti zirvələrə doğru yön almaq vaxtıdır. Sürətlə irəliləyən zaman heç nəyi gözləmir, zamanın qatarından geri qalmağa haqqımız yoxdur. Konkret desək, Azərbaycanın sosial-iqtisadi inkişafının, o cümlədən elmin 2020-2025-ci illər üzrə inkişaf strategiyası elə bu günlərdən başlayaraq hazırlanmalıdır. Bu, zamanın tələbidir, bu dünyanın müasir çağırışlarının diktəsidir. Bu işdə isə ən böyük məsuliyyət ölkəmizin ziyalılarının, biz alimlərin üzərinə düşür. Məlumat üçün bildirim ki, Akademiyada artıq 2020-2025-ci illər üzrə elmin mühüm prioritetləri müəyyənləşdirilmiş, həmin prioritetlərə müvafiq kompleks elmi-tədqiqat proqramlarının icrası istiqamətində tədbirlərə başlanılmışdır. Təbii ki, bu, başlanğıcdır. Qarşıda isə bizi gözləyən vəzifələr çoxdur. Mən Sizi əmin edirəm ki, müstəqil Azərbaycanımızın 30 illik yubileyinə yaxınlaşdığımız belə bir zamanda Azərbaycan elmi xalqımızın və dövlətimizin tərəqqisi naminə bundan sonra da öz intellektual-ideoloji mayak missiyasını şərəflə yerinə yetirəcəkdir.

**– Maraqlı müsahibəyə görə təşəkkür edirik.**

– Çox sağ olun.

**Söhbəti yazdı:**
**Şükür ƏLİZADƏ,**
**“Respublika”.**

# Bakıda Azərbaycan-ABŞ İqtisadi Tərəfdaşlıq Komissiyasının IV iclası keçirilib

## *İndiyədək ABŞ Azərbaycana 13,6 milyard dollar, ölkəmiz isə Birləşmiş Ştatlara 8,2 milyard dollardan çox investisiya yatırıb*

**Mayın 17-də Bakıda Azərbaycan-ABŞ İqtisadi Tərəfdaşlıq Komissiyasının IV iclası keçirilib.**



AZƏRTAC xəbər verir ki, iclasda Maliyyə naziri Samir Şərifov Azərbaycan-ABŞ İqtisadi Tərəfdaşlıq Komissiyasının ölkələrimiz arasında qarşılıqlı faydalı iqtisadi əməkdaşlığın gücləndirilməsi baxımından bütöv institusional çərçivə olduğunu deyib.

“Məmnunluqla qeyd edərdim ki, 7 illik fasilədən sonra bu iclasın keçirilməsi ilə komissiya öz fəaliyyətini bərpa edib. Komissiyanın bugünkü iclasının razılaşdırılmış gündəliyində duran əsas müzakirə mövzuları iki ölkə arasında investisiya münasibətləri, kənd təsərrüfatı, ərzaq təhlükəsizliyi, əqli mülkiyyət hüquqları, turizm sahəsində əməkdaşlıq, Azərbaycanın nəqliyyat, logistika və tranzit imkanları kimi sahələri əhatə edir. Azərbaycan ABŞ-ın Cənubi Qafqazda ən böyük ticarət tərəfdaşıdır. 2018-ci ildə iki ölkə arasında ticarət dövriyyəsi 860 milyon dollar olub. Bunun 530 milyon dolları ABŞ-a ixracın, 330 milyon dolları isə ölkəmizə idxalın hesabına formalaşıb. Bu vaxtadək ABŞ Azərbaycana 13,6 milyard dollar birbaşa, ölkəmiz isə Birləşmiş Ştatlara 8,2 milyard dollardan çox portfel investisiyası yatırıb. Hesab edirik ki, bu göstəricilər bizim iqtisadi sahədə əməkdaşlığımızın potensialını tam əks etdirmir. Bu rəqəmlər daha yüksək ola bilər”, - deyə nazir bildirib.

Qeyd edib ki, son 15 ildə Azərbaycan iqtisadiyyatı çox yüksək templə inkişaf edib. ÜDM 3,3, sənaye istehsalı 2,6, ixrac 4,7, valyuta ehtiyatları isə 24 dəfə artıb. Bir neçə il öncə qlobal əmtəə bazarlarındakı qiymət dəyişkənliyi Azərbaycanın iqtisadiyyatına təsirsiz ötüşməyib. Neftin qiymətinin kəskin azaldığı, ölkənin əsas ticarət tərəfdaşlarının valyutalarının dəyərsizləşdiyi şəraitdə belə ölkədə makroiqtisadi sabitlik tezliklə bərqərar edilib, inflyasiya birrəqəmli səviyyəyə çatdırılıb, genişmiqyaslı iqtisadi islahat proqramı, əhalinin sosial həssas təbəqələri üçün əhatəli sosial paket həyata keçirilib. 2018-ci ildə ÜDM-in artımı 1,4 faiz təşkil edib, cari ilin birinci rübündə isə 3 faizədək yüksəlib.

“Əminliklə deyə bilərik ki, Azərbaycan iqtisadiyyatı dayanıqlılıq nümayiş etdirib, ölkəmizdə əlverişli biznes mühitinin yaradılması istiqamətində əməli tədbirlər həyata keçirilib və onlar ilk nəticələrini verməkdədir. Bu isə xarici investorlar üçün cəlbedicidir”, - deyə S.Şərifov vurğulayıb.

Nazir bildirib ki, Dünya Bankı tərəfindən hazırlanan “Doing Bussines 2019” hesabatında Azərbaycan dünyanın ən islahatçı 10 ölkəsi siyahısına daxil edilib və ən çox islahat aparan ölkə elan olunub. Hesabatda Azərbaycanın mövqeyi 32 pillə irəliləyərək 190 ölkə arasında 25-ci yerə, MDB ölkələri arasında lider mövqeyə yüksəlib. Bütün bunlarla yanaşı, iqtisadiyyatın şaxələndirilməsi və qeyri-neft sektorunun inkişafı hökumətin əsas uzunmüddətli hədəfidir. Prezident İlham Əliyevin rəhbərliyi ilə son illər milli iqtisadiyyatın daha da inkişafını hədəfləyən mühüm islahatlar həyata keçirilməkdədir. On bir sektor üzrə Strateji Yol xəritələrinin hazırlanaraq qəbul edilməsi ölkədə həyata keçirilən iqtisadi islahatların daha da dərinləşməsinə və sistemli xarakter almasına xidmət edir. İqtisadiyyatın rəqabət qabiliyyətini və dayanıqlılığını artıran bu islahatların davam etdirilməsi üzrə bu artıq növbəti dövr - 2022-2025-ci illər üçün də daha dərin iqtisadi islahat proqramının hazırlanmasına başlanılıb.

“Təəssüf hissi ilə bildirmək istərdim ki, Azərbaycan-ABŞ iqtisadi əməkdaşlığına kölgə salan bir sıra məsələlər də mövcuddur. Bu baxımdan, ilk növbədə, 1992-ci ildə ABŞ Konqresi tərəfindən qəbul olunmuş və ölkəmizə qarşı ədalətsiz mövqe nümayiş etdirən birbaşa dövlət yardımlarının göstərilməsini qadağan edən “Azadlığa Dəstək Akti”na edilmiş 907-ci düzəlişin tamamilə ləğvinin əlaqələrimizin daha da möhkəmləndirilməsinə töhfə verəcəyinə inanırıq. Ümidvarıq ki, ABŞ hökuməti bu istiqamətdə, yəni həmin düzəlişin aradan qaldırılması istiqamətində müvafiq addımların atılmasını təmin edəcək”, - deyə nazir vurğulayıb.

Azərbaycan ilə Birləşmiş Ştatlar arasında enerji sahəsində güclü tərəfdaşlıq münasibətlərinin mövcud olduğunu deyən ABŞ Dövlət Katibinin İqtisadiyyat və Biznes Məsələləri üzrə köməkçisinin birinci müavini Peter Haas bildirib: “Ümid edirik ki, bu əməkdaşlıq qeyri-neft sektoru üzrə sahələri də əhatə edəcək. Bu da ABŞ-Azərbaycan münasibətlərini daha da möhkəmləndirəcək”.

P.Haas Azərbaycan və ABŞ-ın güclü etibarlı tərəfdaşlar olduğunu qeyd edib. O, iki ölkə arasında enerji təhlükəsizliyi, sərhəd təhlükəsizliyi və digər sahələrdə mövcud olan güclü tərəfdaşlığı yüksək qiymətləndirib. P.Haas iqtisadi tərəfdaşlığın ikitərəfli münasibətlərdə inkişaf etdirilməli olan vacib sahələrdən biri olduğunu deyib.

Azərbaycanla ABŞ arasında 2012-ci ildən bəri belə formatda görüşün keçirilmədiyini qeyd edən Birləşmiş Ştatların ölkəmizdəki səfiri Li Litzenberqer bu dialoqun müntəzəm xarakter alacağına ümidvar olduğunu bildirib: “Birgə əməkdaşlıq edərək ikitərəfli ticarət və iqtisadi əlaqələr baxımından göstəriciləri daha da artıra bilərik”.

“ABŞ ilk gündən Azərbaycanın dostu və tərəfdaşı olub. Biz ölkənizin müstəqilliyini və suverenliyini dəstək verərək Azərbaycanın iqtisadiyyatını genişləndirmək və şaxələndirmək, eləcə də iqtisadi inkişafı təşviq etmək istiqamətində Azərbaycan xalqı ilə çiyin-çiyinə dayanmışıq”, - deyə diplomat bildirib.

Səfir qeyd edib ki, bu gün ABŞ və Azərbaycanın mövcud güclü ikitərəfli əlaqələrini növbəti səviyyəyə yüksəltmək və daha sıx iqtisadi əlaqələr qurmaq üçün gözəl imkanları var. O, Cənub Qaz Dəhlizinin təkcə Azərbaycan üçün deyil, Avropanın enerji təhlükəsizliyini təmin etmək baxımından əhəmiyyətli layihə olduğunu qeyd edib.

L.Litzenberqer Bakı-Tbilisi-Qars dəmir yolu və Bakı Limanı kimi yeni infrastruktur layihələrini yüksək qiymətləndirib. O, belə layihələrin yeni regional bağlılıq yaratdığını və Azərbaycanın iqtisadi inkişafı üçün böyük imkanlar açdığını bildirib.

Səfir Azərbaycanın çox qısa müddət ərzində həyata keçirdiyi islahatların artıq uğurlu nəticələr verdiyini də vurğulayıb: “ABŞ şirkətləri xüsusilə gömrük və vergi islahatları barədə öz müsbət rəylərini bildirirlər”.

O, yaxın müddətdə ölkədə həyata keçiriləcək hüquqi islahatların da ölkənin investisiya mühitinin daha da yaxşılaşmasına xidmət edəcəyinə ümidvar olduğunu deyib.

İclasda iki ölkə arasında ticarət əlaqələrinin inkişafı və gücləndirilməsi, investisiya imkanları, Azərbaycanda həyata keçirilən iqtisadi islahatlar, habelə turizm, vergi, gömrük, kənd təsərrüfatı, ərzaq təhlükəsizliyi, əmək məsələləri, əqli mülkiyyət və digər sahələrdə əməkdaşlığa dair müzakirələr aparılıb. Həmçinin Azərbaycan və Birləşmiş Ştatlar arasında iqtisadi tərəfdaşlığın mövcud vəziyyəti, komissiyanın 3-cü iclasından sonrakı dövrdə görülmüş işlər və əlaqələrin genişləndirilməsi perspektivləri nəzərdən keçirilib.

**AZƏRTAC**

# Azərbaycan Respublikası Ali Məhkəməsinin sədri və kollegiya sədrləri bölgələrdə vətəndaşları qəbul ediblər

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dövlət qurumları tərəfindən insanlara layiqli xidmət göstərilməsi, vətəndaşların müraciətlərinə qayğı və həssaslıqla yanaşılması barədə tapşırıqlarına uyğun olaraq Ali Məhkəmə tərəfindən vətəndaşların bölgələrdə qəbuluna xüsusi diqqət yetirilir.**



Ali Məhkəmənin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, bölgələrdə vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq mayın 17-də Ali Məhkəmənin sədri Ramiz Rzayev Gəncə şəhərində, Cinayət kollegiyasının sədri Şahin Yusifov Samuxda, İnzibati-İqtisadi kollegiyanın sədri Hikmət Mirzəyev isə Göygöl rayonunda vətəndaşların qəbulunu keçiriblər.

Qəbullar zamanı məhkəmələrin fəaliyyəti ilə bağlı müraciətlərə baxılıb, hər bir vətəndaş diqqətlə dinlənilib, müraciətlərdə qaldırılan məsələlərin bir qismi elə yerindəcə öz həllini tapıb, digər müraciətlər üzrə Ali Məhkəmənin Aparatının qəbulda iştirak edən aidiyyəti məsul işçilərinə müvafiq tapşırıqlar verilib.

Vətəndaşlar bölgə sakinlərinin qəbulu və müraciətlərinə baxılması üçün rahat və əlverişli şərait yaradılmasından razılıqlarını ifadə edərək, göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə minnətdarlıqlarını bildiriblər.

Səfər zamanı Gəncə Apellyasiya Məhkəməsinin yurisdiksiyasına aid məhkəmələrin sədrlərinin və hakimlərinin iştirakı ilə müşavirə keçirilib.

Müşavirədə Ali Məhkəmənin sədri məhkəmə fəaliyyətinin dövlətimizin başçısının tələbləri səviyyəsində təkmilləşdirilməsi, vətəndaş məmnunluğunun yüksəldilməsi, etik davranış qaydalarına dönmədən əməl olunması, korrupsiyanın yolverilməzliyi ilə bağlı tapşırıq və tövsiyələr verib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin “Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi” haqqında 2019-cu il 3 aprel tarixli Fərmanının müstəsna əhəmiyyətini qeyd edən Ali Məhkəmənin sədri bu mühüm Fərmanın məhkəmə fəaliyyətinin gələcək inkişafı üçün “Yol xəritəsi” olduğunu, bu sahədə islahatların yeni inkişaf mərhələsinə keçdiyini vurğulayıb, kompleks qanunvericilik, institusional və praktiki tədbirlər nəzərdə tutan proqram xarakterli Fərmandan irəli gələn vəzifələrin vaxtında, dürüst və dönmədən icrasının təmin olunmasını diqqətə çatdırıb.

**AZƏRTAC**

# Azərbaycanın Xarici İşlər Nazirliyi Laçının işğalının 27-ci ildönümü ilə bağlı açıqlama yayıb

**Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin mətbuat katibi Leyla Abdullayeva Laçın rayonunun işğalı ilə bağlı açıqlama yayıb.**

AZƏRTAC xəbər verir ki, açıqlamada 27 il əvvəl, 1992-ci il mayın 18-də keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin tərkibinə daxil olmayan Laçın rayonunun Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunduğu bildirilir.

Qeyd edilir ki, Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı hərbi təcavüz siyasətinin davamı olan Laçın rayonunun işğalı nəticəsində bölgənin əhalisi etnik təmizləməyə məruz qalıb və hazırda 77 min 518 nəfər Laçın sakini Azərbaycanın müxtəlif bölgələrində məcburi köçkün kimi yaşayır.

Ermənistanın işğalı rayonda dövlət mülkiyyətinə və özəl mülkiyyətə ciddi zərər yetirib. Belə ki, 217 mədəniyyət, 101 təhsil, 142 səhiyyə müəssisəsi, 462 ticarət, 30 rabitə, 2 avtonəqliyyat və müxtəlif təyinatlı istehsal müəssisələri talan və məhv edilib. Həmçinin dünya, yerli əhəmiyyətli çoxsaylı tarixi abidə vandalizmə məruz qalıb. O cümlədən VI əsrə aid Alban Ağoğlan məbədi, XIV əsrə aid Məlik Əjdər türbəsi, Qaraqışlaq kəndində məscid, Zabux kəndində qədim qəbiristanlıq viran edilib, Laçın Tarix Muzeyi və onun qızıl, gümüş və tunc sikkələrdən ibarət qədim kolleksiyası talan olunub.

Beynəlxalq humanitar hüququ, o cümlədən Cenevrə konvensiyaları ilə üzərinə düşən öhdəlikləri kobud şəkildə pozan Ermənistan işğal etdiyi digər Azərbaycan ərazilərində olduğu kimi, Laçın rayonunda da qeyri-qanuni fəaliyyəti davam etdirir, coğrafi adlar dəyişdirilir, rayonun təbii resursları talan edilir, qanunsuz infrastruktur dəyişiklikləri həyata keçirilir, burada məqsədyönlü məskunlaşma siyasəti aparılaraq bölgənin demoqrafik tərkibi dəyişdirilir.

Avropa İnsan Hüquqları Məhkəməsi Azərbaycanın Laçın rayonundan məcburi qovulmuş Azərbaycan vətəndaşlarının xeyrinə “Çıraqov və digərləri Ermənistana qarşı” işi üzrə 2015-ci il 16 iyun tarixli qərar qəbul edərək onların İnsan Hüquqları və Fundamental Azadlıqların qorunmasına dair Konvensiya üzrə mülkiyyət hüququnun, şəxsi və ailə həyatına hörmət kimi hüquqlarının pozulduğunu təsbit edib. Həmçinin bu qərarın 19-20-ci paraqraflarda Laçın rayonu, ələlxüsus Laçın şəhərinin hərbi hücuma məruz qalması, 1992-ci il may ayının ortalarında Laçının havadan bombardman edilməsi və bunun nəticəsində çoxlu sayda evlərin dağıdılması, şəhərin talan edilməsi və yandırılması, hərbi münaqişə dövründə Laçın və ətraf kəndlərin tamamilə dağıdılması öz təsdiqini tapıb.

BMT-nin Təhlükəsizlik Şurası 1993-cü ildə qəbul etdiyi 822, 853, 874 və 884 saylı qətnamələrində Azərbaycan ərazilərinin işğalını pisləyib, Azərbaycanın ərazi bütövlüyünü, suverenliyini və Dağlıq Qarabağın Azərbaycanın ayrılmaz hissəsi olduğunu bir daha təsdiq edərək işğalçı qüvvələrin zəbt olunmuş ərazilərdən dərhal, qeyd-şərtsiz və tam çıxarılmasını tələb edib. Lakin Ermənistan BMT Təhlükəsizlik Şurasının qətnamələrinin, eləcə də digər beynəlxalq təşkilatların qəbul etdiyi qərar və qətnamələrin tələblərinə məhəl qoymayaraq onları ciddi şəkildə pozur və Azərbaycanın işğal olunmuş ərazilərinin ilhaq edilməsi siyasətini yürüdür.

Ermənistan anlamalıdır ki, Azərbaycan ərazilərinin işğal altında saxlanılması heç zaman Ermənistanın güddüyü siyasi nəticələri verməyəcək. Azərbaycan ərazilərinin işğalına əsaslanan status-kvo dayanıqlı deyil və qəbuledilməzdir. Bölgənin, o cümlədən Ermənistanın özünün dayanıqlı, demokratik, sülh, sabitlik və təhlükəsizliyin təmin olunduğu bir şəraitdə inkişafı, ilk növbədə, beynəlxalq hüququn aliliyinin təmin olunması, işğal amilinin aradan qaldırılması, məcburi köçkünlərin fundamental hüquqlarının bərpa olunmasından asılıdır. Yalnız Azərbaycanın işğal olunmuş Dağlıq Qarabağ və ətraf bölgələrindəki Ermənistan silahlı qüvvələrinin bu ərazilərdən dərhal, tam və qeyd-şərtsiz çıxarılması və azərbaycanlı məcburi köçkünlərin öz evlərinə geri qayıtması iki ölkə arasında normal qonşuluq münasibətlərinin qurulmasına və bölgədə davamlı sülh, təhlükəsizlik və rifahın bərpa olunmasına imkan yaradacaq.

Azərbaycan Respublikasının beynəlxalq səviyyədə tanınmış sərhədləri çərçivəsində suverenliyi və ərazi bütövlüyünün bərpa edilməsi, Laçın, habelə ölkənin digər işğal edilmiş rayonlarından olan məcburi köçkünlərin öz doğma torpaqlarına qayıtmaq kimi hüquqlarının təmin edilməsi və ümumilikdə, münaqişənin ağır fəsadlarının aradan qaldırılması beynəlxalq ictimaiyyətin öhdəliyi olmaqla yanaşı, BMT Nizamnaməsində təsbit edildiyi kimi, Azərbaycan dövlətinin ayrılmaz hüququdur.

**AZƏRTAC**

# Avropa Liqasının finalı: Bakı düzgün seçim oldu?

**ABŞ-ın “The USA Tribune” portalında tanınmış idman şərhçisi, “Çelsi” futbol klubunun sadiq azarkeşi Etan Cenkinsin “Avropa Liqasının finalı: Bakı düzgün seçim oldu?” sərlövhəli məqaləsi dərc olunub. AZƏRTAC məqaləni təqdim edir.**

* * *

İngiltərənin dörd futbol klubu Avropa futbolunun ən yüksək titulları uğrunda mübarizəyə hazırlaşır. Hər iki finala sayılı günlər qalır. UEFA Çempionlar Liqası və Avropa Liqası çempionluğu onlardan yalnız ikisinə nəsib olacaq.

Son oyun günlərində Avropa Liqası müəyyən dərəcədə kölgədə qaldı. Çünki dünyanın dörd bir yanından olan azarkeşlərin diqqəti Çempionlar Liqasının inanılmaz və son dərəcə maraqlı “nokaut” mərhələsinə yönəlmişdi: “Liverpul” möhtəşəm geridönüş edərək kataloniyalı rəqibi “Barselona”nı darmadağın etdi. Hollandiyanın “Ayaks” klubu isə yarımfinalın son saniyələrində “Tottenhem”ə məğlub olaraq finala vəsiqəni əldən verdi.

Ancaq UEFA Avropa Liqası finalının keçiriləcəyi məkan futbol dairələrində geniş müzakirə mövzusuna çevrilib. Nüfuzlu kütləvi informasiya vasitələri çoxsaylı idman şərhçiləri ilə Bakıya ev sahibliyinin həvalə olunması qərarının səbəbini təhlil etməyə çalışıb. Bunun nə dərəcədə düzgün və ya yanlış qərar olduğunu təxminən üç həftədən sonra biləcəyik. Ancaq hər halda bu qərarı tənqid atəşinə tutmağa heç bir əsas yoxdur.

Bakı şimaldan Rusiya, cənubdan İran, qərbdən Gürcüstan və Ermənistanla həmsərhəd Azərbaycan Respublikasının paytaxtıdır, Xəzər dənizinin sahilində yerləşir. Şəhərdə, şəhərətrafı kənd və qəsəbələrdə dörd milyon yeddi yüz min nəfər yaşayır. Bakı son illər ərzində iqtisadiyyatı yüksək templə inkişaf edən, çiçəklənən sənaye meqapolisi sayılır. Şəhər təbii resurslarla zəngin torpaqlar üzərindədir. Neft yataqları Bakı və onun ətrafında geniş əraziləri əhatə edir, dünyanın ən iri neft yataqlarından biri isə Abşeron yarımadasının sahillərində yerləşir.

1994-cü ildə ölkə rəhbərliyi “Əsrin müqaviləsi”ni imzalayıb. Bu, Qərbi Avropadan olan enerji şirkətlərinin ölkənin neft-qaz infrastrukturuna yatırımlarını və Azərbaycanın Qərbi qiymətli xammalla təchiz etməsini əhəmiyyətli dərəcədə stimullaşdırıb. Neft satışından gələn dollarlar ölkə büdcəsinə daxil olmağa başlayandan - 2006-cı ildən sonra hökumət infrastruktura, sosial proqramlara, silahlı qüvvələrə, idmana, hətta öz süni peyklərinin kosmosa buraxılmasına külli miqdarda vəsait ayırmağa başlayıb.

Hökumət və hökumətin maliyyələşdirdiyi müxtəlif təşkilatlar beynəlxalq idman yarışlarını Azərbaycana gətirmək, turizmi inkişaf etdirmək və gənclər proqramının reallaşdırılması yolu ilə idman mövqelərini gücləndirmək üçün çoxsaylı idman və əyləncə obyektlərinin inşasına milyonlar xərcləyib.

Bu günədək Azərbaycan çox sayda beynəlxalq yarışlar və müsabiqələrə, cümlədən 2015-ci ildə şahmat üzrə dünya kuboku, Birinci Avropa Oyunları, Futbol üzrə 17 yaşadək (U-17) qızlar arasında dünya çempionatı, 2017-ci ildə İslam Həmrəyliyi Oyunları, 2018-ci ildə cüdo üzrə dünya çempionatı, həmçinin “Eurovision” mahnı müsabiqəsi və başqa əyləncəli yarışlara ev sahibliyi edib.

Paytaxtı dünya xəritəsində əlamətdar etmək, onu beynəlxalq tədbirləri qəbul etməyə hazır vəziyyətə gətirmək üçün müxtəlif obyektlərin inşasına, infrastrukturun bərpasına, ictimaiyyətlə əlaqələr üzrə kampaniyalara milyardlarla dollar xərclənib.

Bakının ən gözəl məkanlarından biri elə Bakı Olimpiya Stadionudur. Avtomobillə şəhər mərkəzindən və Heydər Əliyev Beynəlxalq Aeroportundan bir neçə dəqiqəlik məsafədə yerləşir. Bu möhtəşəm idman arenası ilk tamaşaçıları hələ 2015-ci ildə birinci Avropa Oyunlarının açılışında qəbul edib. Geniş müzakirə olunan UEFA Avropa Liqası finalı məhz burada keçiriləcək.

225 min kvadratmetr sahəsi olan arena 68 min 700 tamaşaçı üçün nəzərdə tutulub. Avropa Oyunları ilə yanaşı, stadionda artıq bir sıra əlamətdar futbol matçları da keçirilib. 2017-ci ildə “Qarabağ” futbol klubu öz ev oyunlarını burada keçirib, həmin vaxt klub ölkənin futbol tarixində ilk dəfə olaraq UEFA Çempionlar Liqasının qrup mərhələsinə vəsiqə qazanmışdı.

“Roma”, “Çelsi” və “Atletiko Madrid” klublarına qarşı matçlar (ev oyunları) məhz bu stadionda baş tutmuş, hər hansı insident qeydə alınmamışdı. Sevimli komandalarının “Qarabağ”a qarşı oyununu canlı izləmək üçün minlərlə avropalı azarkeş Bakıya axın etmişdi.

Ola bilsin, bütün bunlar, xüsusilə Çempionlar Liqasının qrup mərhələsinin üç oyununun və 2020-ci ildə təşkil ediləcək Avropa çempionatının qrup mərhələsinin üç, dörddəbir final mərhələsinin bir oyununun keçirilməsi Avropa Liqası finalının ev sahibliyinin Bakıya həvalə olunmasının əsas səbəblərindən biridir.

Bəs Avropa Liqasının keçiriləcəyi məkan ətrafında bu ajiotaj niyə ortaya çıxıb?

Avropa komandaları Avropa paytaxtlarında keçirilən yarışlara, həmin paytaxtlar isə minlərlə fanatı qəbul etməyə alışıb. Ola bilsin, kiçik Bavariya şəhərində avtobusa və ya Parisdən Madridə hərəkət edən avro-qatara minmək daha komfortlu və şübhəsiz ki, cəlbedicidir. Ancaq bu, demək deyil ki, əksər Avropa paytaxtlarından Bakıya dörd-beş saatlıq uçuş normal hüdudları aşır.




“Liverpul” klubunun baş məşqçisi Yurgen Klopp, deyəsən, bununla razılaşmır. Klopp mətbuat konfransında başqa şəhərlər ola-ola, Avropa Liqası finalının ev sahibliyini Bakıya həvalə edənlərin “səhər yeməyinə nə yediyi” ilə maraqlanıb.

Əslən Ştutqartdan olan çalışdırıcı və Dortmundun “Borussiya” klubunun baş məşqçisi olan dönəmlərdə şöhrət qazanmış Klopp belə bir fikir yürüdüb ki, Bakı orta statistik avropalı azarkeş üçün çox uzaq ola bilər. “Liverpul” baş məşqçisinin nə üçün belə bir fikir səsləndirdiyi aydın deyil. Aydın olan odur ki, Bakı beynəlxalq turnirlərə milyonlarla idman azarkeşinin axışdığı Avropa, Asiya, Afrika və ya digər qitələrin şəhərlərindən heç nə ilə fərqlənmir.

Götürək elə Rusiyada keçirilmiş dünya çempionatını. 2018-ci ilin yayında oyunları izləmək üçün Rusiyaya Avropadan milyonlarla azarkeş gəlmişdi. Halbuki ən populyar futbol matçlarının keçirildiyi şəhərlərdə, azarkeşlərin tələblərinə cavab verən vasitələr və infrastruktur kifayət etmirdi. Onların arasında “Die Mannshcaft” və “The Three Lions”a dəstək olmaq üçün yüz minlərlə alman və britaniyalı azarkeş yer alırdı.

Bir neçə il ərzində artan templə inkişaf edən Bakı da istisna deyil. Artıq yüzlərlə hotel və “Airbnb” sistemində iştirak edən özəl icarədarlar mayın sonuna kimi bronla bağlı sifarişlər qəbul edir. Bir neçə il əvvəl Azərbaycan rəhbərliyi viza verilişi üçün ərizələrin təqdim olunması ilə bağlı yeni sistem işə salıb. Bu sistem Cənubi Qafqaz ölkələrinə sürətli və sərfəli səyahətlərə şərait yaradıb.

Bu arada, Azərbaycan futbolunun rəsmi nümayəndəsi Elxan Məmmədov Kloppun replikalarına cavab verərək, Azərbaycan Futbol Federasiyaları Assosiasiyasının “dahi mütəxəssis”in bu bəyanatlarına təəccübləndiyini dilə gətirib.

Əlavə edib ki, futbol Avropa sərhədləri ilə məhdudlaşmamalıdır, əksinə, qloballaşmalıdır. Həqiqətən, ən zəngin klubların və idmançıların Avropaya məxsus olmasına baxmayaraq, coğrafi sərhədlərin genişlənməsi bu idman növünün qlobal səviyyədə daha da inkişaf etməsinə vəsilə ola bilər.

Tanınmış futbol karikaturaçısı Omar Momani bu cəsarəti öz üzərinə götürərək, Kloppu çəkdiyi karikatura ilə məsxərəyə qoyub, onu Azərbaycan qonaqpərvərliyini öz üzərində sınamağa dəvət edib.

“Bizə qoşulun, cənab Klopp, Azərbaycanın səhər yeməyi insanları birləşdirir, xoşbəxt edir. Dadına baxmağa dəyər!”, - deyə birgə süfrə arxasında səhər yeməyi yeyən “Çelsi” və “Arsenal” futbolçularının və ağzının suyu axa-axa müxtəlif təamların olduğu masaya əyləşməyi arzulayan Kloppun təsvir olunduğu karikaturanın mətnində qeyd olunur.

Kloppun tənqidi çıxışlarına sonradan Britaniya Xarici İşlər Nazirliyi (XİN) də qoşulub. Britaniya XİN vətəndaşlarını ən yaxşı halda Azərbaycana səfər edən zaman ehtiyatlı olmağa, ən pis halda isə ümumiyyətlə, ölkəyə səfər etmək fikrindən daşınmağa çağıran xəbərdarlıqla çıxış edib. Britaniya hökuməti hətta “səviyyə”yə çatıb ki, vətəndaşlarını potensial terrorla qorxutmağa başlayıb. “Terrorçular, böyük ehtimalla, Azərbaycana hücum etməyə çalışacaq”, - deyə Xarici İşlər Nazirliyinin bəyanatında qeyd olunur. Halbuki elə həmin bəyanatda əlavə olunur ki, hər il Azərbaycana təxminən yeddi min britaniyalı səfər edir və problemsiz şəkildə geri qayıdırlar.

Britaniyalı həmkarlarına cavabında Azərbaycan XİN rəsmi Londonun bu mövqeyinin aydın olmadığını bildirib.

“Ölkəmizin malik olduğu digər müsbət xüsusiyyətlərlə bərabər, Azərbaycanda hökm sürən əmin-amanlıq, sabitlik və təhlükəsizlik əcnəbi turistləri cəlb edən vacib amillər sırasındadır”, - deyə nazirliyin mətbuat katibi Leyla Abdullayeva bildirib.

Başqa ölkələrlə müqayisədə, daha çox beynəlxalq və daxili terrorla, cümlədən, 2005-ci ildə terrorçu-kamikadzelərin silsilə partlayışları və ya bu yaxınlarda Vestminster istiqamətində bıçaqla törədilən hücumlarla üzləşmiş bir ölkənin öz vətəndaşlarını Azərbaycanda “terror riskləri” ilə bağlı xəbərdar etməsi, həqiqətən də, adamda təəccüb doğurur.

Məsələ ondadır ki, dini və etnik tolerantlığı ilə seçilən Azərbaycanla müqayisədə, Birləşmiş Krallıqda nifrət zəminində daha çox cinayətlər törədilir.

İş ondadır ki, terror bir yerdə dayanmır, yeni reallıqlarda inkişaf edir. Misal üçün, 2005-ci ildə Londonda terror hücumu nəticəsində 56 nəfər həyatını itirib və ya Madriddə qatarların partladılması nəticəsində 193 nəfər ölüb.

Bir məsələ gün kimi aydındır: terrorun bütün formaları mühakimə olunmalıdır, ona qarşı mübarizə aparılmalıdır, beynəlxalq miqyaslı tədbirlərlə bağlı terror riskləri ortaya çıxanda isə hökumətlər dünya vətəndaşlarını qorumaq üçün səylərini birləşdirməlidirlər. Yersiz bəyanatlar yox, yalnız səmərəli əməkdaşlıq terror və nifrət üzərində qələbə çala bilər.

**AZƏRTAC**

# Binəqədi qəsəbəsində sakinlərin problemləri müzakirə olunub

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin dövlət qurumları rəhbərlərinin yerlərdə əhali ilə görüşlərinin keçirilməsi ilə bağlı tapşırığına uyğun olaraq Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizovun Binəqədi rayonu Binəqədi qəsəbəsinin sakinləri ilə görüşü olub.

Sakinlərin problemlərinin öyrənilməsi və aradan qaldırılması məqsədilə təşkil olunan görüşdə Bakı Şəhər İcra Hakimiyyətinin başçısı ilə yanaşı, Binəqədi Rayon İcra Hakimiyyətinin başçısı Elxan Allahverdiyev, müvafiq təsərrüfat və xidmət sahələrinin rəhbərləri, Binəqədi qəsəbəsinin ayrı-ayrı məhəllələrinin sakinləri, ağsaqqallar, həmçinin qonşu Biləcəri qəsəbəsinin nümayəndələri iştirak etmişlər.

Bu gün paytaxtımızın sürətlə inkişaf etdiyini, onun müasir görkəm aldığını vurğulayan icra hakimiyyətinin başçısı bildirib ki, Prezident İlham Əliyevin siyasəti ümumxalq xarakterlidir və bu istiqamətdə atılan hər bir addımın təməlində vətəndaş amili dayanır. Cənab Prezidentin dövlət qurumları rəhbərləri qarşısında qoyduğu əsas tələb vətəndaşların problemlərinin həllinə öz problemləri kimi yanaşmaqdır. Paytaxtda aparılan genişmiqyaslı quruculuq və abadlıq işlərindən danışan Eldar Əzizov bildirmişdir ki, "Dövlətimizin başçısı qarşıya paytaxtın qəsəbələrinin də daha da inkişaf etdirilməsi ilə bağlı tapşırıq qoyub".



Sonra Binəqədi Rayon İcra Hakimiyyəti başçısının Binəqədi qəsəbəsi üzrə nümayəndəsi Zakir Əliyev qəsəbədə görülmüş işlərlə bağlı hesabat vermişdir.

"Açıq mikrofon" formatında sakinlərin böyük fəallığı ilə keçən görüşdə çıxış edən binəqədililər Bakı şəhərində, eyni zamanda, Binəqədi qəsəbəsində görülən işlərə, onlara göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban Əliyevaya minnətdarlıqlarını bildirib, dövlətimizin başçısının həyata keçirdiyi siyasi kursa birmənalı dəstək ifadə ediblər.

Maraqlı dialoq şəklində keçmiş görüşdə 39 nəfər sakin çıxış edib, onları narahat edən məsələlər dinlənilib və müvafiq tapşırıqlar verilib. Müraciətlər əsasən su və kanalizasiya xətlərinin yenilənməsi, məhəllədaxili yolların təmiri və işıqlandırılması, sahibsiz heyvanların yığışdırılması, qəsəbədə yeni uşaq bağçası və məktəbin tikintisi və s. olmuşdur.

Görüşdə sakinləri daha çox narahat edən problemlərdən olan fərdi yaşayış evlərinin sənədləşdirilməsi məsələsinə toxunan Eldar Əzizov bildirmişdir ki, bu, onilliklərdən bəri yığılıb qalmış problemdir. Ölkə başçısı bu problemin həlli ilə bağlı müvafiq tapşırıqlar verib. Tərəfimizdən işçi qrup yaradılıb və Bakı şəhərinin bütün qəsəbələrinin sakinlərini narahat edən bu məsələnin həlli üçün əlaqədar qurumlarla birgə işlər aparılır. Tikilən evlərin sənədləşmə prosesində bir sıra əlavə problemlər ucbatından bu işləri 1 anda həll etmək mümkün deyildir, vaxt tələb olunur. Hər halda, məsələ nəzarətdə saxlanılır.

**İsrafil KƏRİMOV,**
**Bakı Şəhər İcra Hakimiyyəti Mətbuat Xidmətinin rəhbəri.**

# YAP sıraları genişlənir





Mirqasımov adına Respublika Klinik Xəstəxanasında Yeni Azərbaycan Partiyasının sıralarına qəbulla bağlı təntənəli tədbir keçirildi. Tədbiri giriş sözü ilə açan **Klinik Xəstəxananın baş həkimi Telman İbadov** mərasimdə iştirak edən qonaqları salamladı və YAP üzvlüyünə qəbul edilən xəstəxana əməkdaşlarını ürəkdən təbrik etdi. O bildirdi ki, əməkdaşlarımızdan 278 nəfəri YAP-a qəbulla bağlı öz ərizələri ilə müraciət etmiş və onların müraciətlərinə müsbət rəy verilmişdir.

Telman İbadov çıxışında qeyd etdi ki, bu gün Yeni Azərbaycan Partiyası Azərbaycanda ən aparıcı siyasi qüvvədir. Sevindirici haldır ki, partiyanın ideyaları, həyata keçirdiyi uğurlu siyasi kurs xalq tərəfindən birmənalı olaraq dəstəklənir. Partiyanın sıraları ildən-ilə genişlənir, 800 minə yaxın partiyanın üzvü var və çox sevindirici haldır ki, gənclərimizin böyük əksəriyyəti YAP-a üz tutur. 1992-ci ildə ulu öndər Heydər Əliyevin sədrliyi ilə Naxçıvan şəhərində keçirilmiş partiyanın təsis konfransı çox böyük tarixi hadisə, Azərbaycanın inkişaf tarixinin dönüş nöqtəsi idi. Əgər o vaxt Yeni Azərbaycan Partiyası yaradılmasaydı ölkənin inkişaf istiqamətləri qeyri-müəyyən olardı. Çünki həmin dövrlərdə Azərbaycan çox ciddi problemlərlə üz-üzə durmuşdu. Demək olar ki, Azərbaycanın dövlət müstəqilliyi böyük təhlükə altında idi. Xalqın təkidli tələbi və xahişi ilə hakimiyyətə gələn Heydər Əliyev az bir zaman kəsiyində ölkəmizdə cərəyan edən bütün xoşagəlməz halların qarşısını aldı, baş alıb gedən və günü-gündən dərinləşən böhran aradan götürüldü, hakimiyyətsizliyin, vətəndaş qarşıdurmasının qarşısı birdəfəlik alındı. Qısa müddət ərzində Azərbaycanda sabitlik yarandı, yeni inkişaf və tərəqqi dövrünə qədəm qoyuldu.

Bu gün Azərbaycanda ulu öndərimiz Heydər Əliyevin təməlini qoyduğu iqtisadi inkişaf kursu Heydər Əliyevin siyasi varisi Azərbaycan Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Hazırda ölkəmiz dünya miqyasında özünün xüsusi yeri, mövqeyi olan müstəqil dövlətdir. Əldə olunmuş uğurların təməlində ölkə başçısının həyata keçirdiyi düşünülmüş, məqsədyönlü siyasət dayanır. Bu siyasətin əsası isə xalqın mənafeyi və maraqlarıdır. Mənim axıra çatdıra bilmədiyim işləri, planları İlham Əliyev axıra çatdıra biləcək, - deyən dahi rəhbər onu da vurğulamışdır ki, həm İlham Əliyev, həm də Yeni Azərbaycan Partiyası bundan sonra da xalqımızın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirəcək.

Daha sonra xəstəxananın baş həkimi Telman İbadov vurğuladı ki, ümummilli lider Heydər Əliyev Azərbaycana rəhbərliyinin hər iki dönəmində ölkə səhiyyəsinin inkişafına daim xüsusi diqqət və qayğı ilə yanaşmış, mühüm tədbirlər həyata keçirmişdir. Onun təməlini qoyduğu səhiyyə islahatları cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Bu gün Azərbaycan səhiyyəsi öz inkişaf səviyyəsinə görə dünyanın bu sahədə aparıcı dövlətləri bəzi hallarda qabaqlayır. Xəstəxanamız da bu inkişafdan geri qalmamışdır. Xəstəxanada əhalinin tibbi müayinədən keçməsi, sağlamlıqlarına tam qovuşmaları üçün hər cür lazımi şərait yaradılmışdır. Kollektivimiz bu imkanlardan tam bəhrələnərək əhaliyə daha keyfiyyətli tibbi xidmət göstərir, cənab İlham Əliyevin rəhbərliyi ilə respublikamızın ictimai-siyasi həyatında baş verən hadisələrdə yaxından iştirak edir. Bugünkü tədbirdə 278 nəfər tibb işçisinin YAP üzvlüyünə qəbulu da əmək kollektivimizin Heydər Əliyev ideyalarına sadiqliyinin əyani bir təzahürüdür.

Baş həkim çıxışının sonunda bir daha partiya üzvlüyünə qəbul olunan tibb işçilərini təbrik etdi, onlara Azərbaycanımızın inkişafı naminə daha səylə çalışmağı arzu etdi. Bu gün istər dövlət tədbirlərində yaxından iştirak edən, istərsə də tibbi xidmət sahəsində ən nümunəvi olan tibb ocağının kollektivi cənab Prezidentin ətrafında daha sıx birləşib vətənimizin, ölkə səhiyyəsinin inkişafı naminə öz layiqli töhfələrini verəcək.

Sonra Respublika Xəstəxanasının II qəbul şöbəsinin müdiri İmran Qurbanov partiya üzvlüyünə qəbul olunanlar barədə məlumat verdi, YAP vəsiqələrinin təqdimolunma mərasimi başladı. YAP Yasamal rayon təşkilatının sədri Tağı Əhmədov çıxış edərək partiya sıralarına yeni üzv seçilənlərə öz təşəkkürünü bildirdi və qeyd etdi ki, Heydər Əliyevin yaratdığı partiyanın bu gün 800 minə yaxın üzvü var və üzvlərin sayı günügündən çoxalır. Bu partiya işıqlı və zəngin, həm də Qafqaz regionunun ən böyük partiyasıdır. YAP uzun illər yaşayacaq və Azərbaycanın işıqlı gələcəyini təmin edəcək. Azərbaycanda Heydər Əliyev strategiyası, inkişaf xətti cənab Prezident İlham Əliyev tərəfindən davam etdirilir və bizim hamımız ölkə başçısının ətrafında sıx birləşməliyik. Onu da qeyd edim ki, YAP Yasamal rayon təşkilatının da üzvlərinin sayı getdikcə artır və artıq 31800 nəfərə çatıb. Tağı Əhmədov ulu öndərin həyat və fəaliyyətindən, onun Azərbaycan xalqı və dövləti qarşısındakı xidmətlərindən tədbir iştirakçılarına geniş məlumat verdi. O, bir daha YAP üzvlüyünə qəbul olunanları təbrik etdi, onlara fəaliyyətlərində yeni-yeni uğurlar arzuladı.

**Əli SADIQOV,**
**"Respublika".**

# "Elazığ - Beynəlxalq Xəzər Şeir Axşamları" tarixi xronikası Azərbaycan dilində




*Hadi Önal: Elazığ - Dünəndən bu günə Beynəlxalq Xəzər Şeir Axşamları. Redaktoru, Anadolu türkcəsindən Azərbaycan türkcəsinə uyğunlaşdıran, ön söz və "Köməkçi göstəricilər"in müəllifi: fil.e.d. Almaz Ülvi Binnətova; məsul katib İlhamə Sultanova. Bakı, "Avropa", 2019, 112 səh.*

Qardaş Türkiyədən olan ustad şair, publisist Hadi Önalın Azərbaycan dilində nəşr olunmuş kitabında 1992-ci ildən fəaliyyətə başlayan və 24 dəfə gerçəkləşən "Beynəlxalq Xəzər Şeir Axşamları"nın tarixindən, şeir məclislərinin gözəlliklərindən bəhs edilir. Kitab filologiya elmləri doktoru Almaz Ülvinin "Şeir axşamlarının şöləsi" adlı giriş sözü ilə açılır. Bu məclisin Türk dünyamız üçün bir sülh mesajı olduğunu xatırladan A.Ülvi yazır: "Xoşbəxtəm ki, Elazığdakı Xəzər Şeir Axşamlarının 3 (üç) məclisinə məruzəçi kimi dəvət olunan 4-5 nəfər elm adamından biri olmuşam. "Yunus Əmrə və eşq", "Yəhya Kamal Bayatlı və İstanbul" və "Əlişir Nəvai və Türkcə" adlı məruzələrim ilə bu məclislərdən aldığım zövq və şövqü ömrüm boyu unutmayacağam".

Daha sonra kitabda Hadi Önalın "Şeirə, sözə salamlar" məqaləsi ilə "Beynəlxalq Xəzər Şeir Axşamları"nın bütün məclisləri haqqında geniş və maraqlı məlumatlar - xronika yer alır.

Hadi Önal yazır: "Sevgini gözəl olanı sənətlə birləşdirən, insan fitrətindəki məşəli ürəklərdə alovlandıran, sözünün mahiyyəti şeirlə könül gözü olan insanları birləşdirən böyük bir mədəniyyət məclisi adı olan Beynəlxalq Xəzər Şeir Axşamları Türk dünyasının şeir bayramı və mənəvi qurultayıdır. Keçmişlə gələcək arasında körpü quran, dünənin mədəniyyətini bu günə, bu günün mədəniyyətini və gözəlliyini də gələcəyə daşıyan Türk aləminin uzun müddət davam edən ədəbi hadisəsi - Beynəlxalq Xəzər Şeir Axşamları hər il Elazığın Sivricə şəhəri sərhədləri daxilində olan Xəzər gölünün sahilində keçirilməkdədir. "Beynəlxalq Xəzər Şeir Axşamları" 24 ildir ki, könül gözəlliklərini özlərinə və qələmlərinə yükləyən Azərbaycan, Şərqi Türküstan, Qazaxıstan, Özbəkistan, Türkmənistan, Qırğızıstan, Orta Asiya, Qafqaz, Balkan, Kərkük, Kipr və əlbəttə, Türkiyədən olan şairləri Türkün bu böyük bayramına, şeirin sehri ilə yuyunan bu möhtəşəm qurultayına dəvət edir. İştirak edənlər ruhlarını Xəzər gölünün mavi sularında yuyarkən eyni kökə mənsub olan qardaşları ilə qucaqlaşmağın sevincini yaşayırlar. "Beynəlxalq Xəzər Şeir Axşamları"nda bir tərəfdə yaşayan Türkcənin bayrağı dalğalanarkən, digər tərəfdə də könül gözlü sevdalılar həsrət qaldıqları qardaşları ilə həmsöhbət olurlar. Böyük Xəzərlə kiçik Xəzəri qucaqlaşdıran "Beynəlxalq Xəzər Şeir Axşamları"nda torpağın havanın isinməsi ilə oyandığı, toxumun günəşin eşqi ilə çatladığı, yenicə cücərmiş bitkilərin o zərif quruluşuna baxmayaraq, bir an əvvəl aydınlığa qovuşmağın eşqi ilə yanıb Fırat olduğu bir zaman kəsiyi bütün əndazəsi ilə yenidən yaşanar.

"Xəzər Şeir Axşamları"nda illər ərzində iştirak edən şair, yazıçı və elm adamlarının, o cümlədən Azərbaycandan olan iştirakçıların sayına nəzər yetirdik və kitabın sonundakı "Köməkçi göstəricilər"də bu siyahı da yer alıb. Bütün türk dünyasından 812 nəfər, o cümlədən Azərbaycandan 60-a yaxın nümayəndə iştirak edib: Nəbi Xəzri, Bəxtiyar Vahabzadə, Əbülfəz Elçibəy, Anar, Abbas Abdulla, Qabil, Ramiz Rövşən, Zəlimxan Yaqub, Sabir Rüstəmxanlı, Oqtay Rza, Nurəngiz Gün, Şahmar Əkbərzadə, Fikrət Qoca, Məmməd Aslan, Vaqif Bayatlı, Qənirə Paşayeva və bir çox yeni nəsil gənc şair və yazıçılar ..."

Hadi Önalın təqdim edilən "Elazığ — Dünəndən bu günə Beynəlxalq Xəzər Şeir Axşamları" kitabında bütün türk dünyasını əhatə edən şeir ovqatının havasını duyacaqsınız.

**"Respublika".**

---

"Bakı Metropoliteni" QSC "N.Nərimanov" elektrik deposu ərazisində 23-24-25-26-27-28-29-30-cu qanovlarda və yeni tikilən Emalatxanalar binasında döşəmənin epoksid döşəmə örtüyü ilə rənglənməsi işlərinin satınalınması üzrə

AÇIQ TENDER ELAN EDİR

Tender 1 (bir) lot üzrə keçirilir:

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər lot üzrə aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, M.Rəfili küçəsi 16-dan, (Əlaqələndirici şəxs: Rauf Yusifov, telefon: 490-00-91) ala bilərlər.

LOT-1. "N.Nərimanov" elektrik deposu ərazisində 23-24-25-26-27-28-29-30-cu qanovlarda və yeni tikilən Emalatxanalar binasında döşəmənin epoksid döşəmə örtüyü ilə rənglənməsi işlərinin satınalınması

İştirak haqqı - 250 manat
Hesabın adı: BAKI METROPOLİTENİ QSC
Hesab nömrəsi (İBAN):
AZ98AZRT38050019440010268002 AZN
VÖEN 1402871431
Bankın adı: AZƏR TÜRK BANK ASC (Mərkəz Filialı)
Kod: 501361
VÖEN: 9900006111
Müxbir hesabı:
AZ02NABZ01350100000000022944
SWİFT BİK: AZRTAZ22

İştirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

-tenderdə iştirak etmək üçün yazılı müraciət;

-tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;

-tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 40 bank günü qüvvədə olmalıdır);

-tender təklifi dəyərinin 1%-i həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 70 bank günü qüvvədə olmalıdır).

-Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;

-iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;

-iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;

-İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" Qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 01 iyul 2019-cu il saat 18:00-a qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə 09 iyul 2019-cu il saat 17:00-a qədər, Bakı şəhəri, M.Rəfili küçəsi 16, ünvanına "İcraya Nəzarət, Kargüzarlıq və Təsərrüfat İşləri" şöbəsinə təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 10 iyul 2019-cu il saat 15:00-da yuxarıda göstərilən ünvanda açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

"BAKİ METROPOLİTENİ" QSC
TENDER KOMİSSİYASI.

---

Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyinin tabeliyində

"MİDA" Məhdud Məsuliyyətli Cəmiyyəti Bakı şəhəri, Yasamal rayonu, Xarici dairəvi avtomobil yolunun kənarında (Qanlı gölün şimal hissəsi) yerləşən 15,4 ha torpaq sahəsində çoxmənzilli binaların tikintisi ilə əlaqədar satınalmalar üzrə

AÇIQ TENDER ELAN EDİR

Tender 6 lot üzrə keçirilir:

Lot-1 - 13 nömrəli 9 mərtəbəli 2 bloklu və 16 nömrəli 9 mərtəbəli 2 bloklu yaşayış binalarının tikintisi;

Lot-2 - 9 nömrəli 12 mərtəbəli 1 bloklu yaşayış binasının tikintisi;

Lot-3 - 32 nömrəli 9 mərtəbəli 2 bloklu yaşayış binasının tikintisi;

Lot-4 - 48 və 49 nömrəli qeyri-yaşayış binalarının, 2 ədəd polis məntəqəsinin və 2 ədəd qazanxananın (məktəb və 46 nömrəli uşaq bağçası üçün) tikintisi;

Lot-5 - 45 nömrəli və 47 nömrəli 125 yerlik uşaq bağçalarının (qazanxana binaları ilə birlikdə) tikintisi;

Lot-6 - Sahəxarici və sahədaxili qaz təminatı.

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini imzalanmış, möhürlənmiş, ikiqat bağlamada, yazılı surətdə təqdim etsinlər. Tender təkliflərinin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: aşağı qiymət, satınalma müqaviləsinin vaxtında yerinə yetirilməsi, podratçının ixtisas göstəricilərinin aidiyyəti işlər üzrə uyğunluğu, analoji işlər üzrə təcrübəsi, texniki, maliyyə və kadr imkanları.

Tender predmeti haqqında ətraflı məlumat tenderin əsas şərtlər toplusunda verilir. Maraqlananlar tenderin əsas şərtlər toplusunu (Azərbaycan dilində hazırlanmış) tenderdə iştirak etmək üçün yazılı müraciət edib qeydiyyata alındıqdan sonra aşağıdakı hesaba hər bir lot üzrə qeyd olunan məbləğdə iştirak haqqı ödəməklə Bakı şəhəri, Cəlil Məmmədquluzadə küçəsi, 85Z ünvanından (əlaqələndirici şəxs: Vəliyev Zahid Musa oğlu, telefon: (+99412) 594-54-01 daxili 238) ala bilərlər.

VÖEN: 1701953921
"Kapital Bank" ASC-nin Mərkəzi filialı
Filialın kodu: 200026
VÖEN: 9900003611
SWİFT kod: AİİBAZ2X
M/h: AZ37NABZ01350100000000001944
"MİDA" MMC
Hesab: AZ18AİİB38030019440029636102
Lot-1 - 500 manat;
Lot-2 - 300 manat;
Lot-3 - 300 manat;
Lot-4 - 300 manat;
Lot-5 - 500 manat;
Lot-6 - 300 manat.

Ödənilmiş iştirak haqqı heç bir halda geri qaytarılmır.

Podratçılar iddiaçı statusu almaq və tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri (rəsmi blankda və möhürlə təsdiq olunmuş qaydada) təqdim etməlidirlər.

1. Tenderdə iştirak etmək üçün ərizə;
2. İştirak haqqının ödənilməsini təsdiq edən bank sənədi;
3. Tender təklifi (tender təklifi zərflərinin açıldığı gündən sonra azı 60 (altmış) bank günü qüvvədə olmalıdır);
4. Tender təklifinin ümumi qiymətinin 1 (bir) faizi məbləğində tender təklifinin təminatı - bank zəmanəti (təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən azı 30 (otuz) bank günü çox olmalıdır);
5. İddiaçı haqqında tələb olunan sənədlər. Bu sənədlərə aşağıdakılar daxildir:

- İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;
- İddiaçı inşa etdiyi analoji tikililər barədə istismara qəbul Dövlət Aktının surətini və ya inşasını davam etdirdiyi analoji işlər üzrə bağlanmış müqavilənin təsdiq olunmuş surətini təqdim etməlidir;
- Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi və sosial müdafiə orqanından arayış;
- İddiaçının son 1 (bir) ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;
- İddiaçının son 3 (üç) ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;
- İddiaçının ixtisas göstəricilərinə dair məlumatlar (bu məlumatlar tenderin əsas şərtlər toplusunda tələb olunan sənədlərdə və formalarda təqdim olunmalıdır);
- Digər sənədlər: tenderdə xarici şirkətlər iştirak etdikdə onların Azərbaycanda nümayəndəliyinin olmasını təsdiq edən sənədlər.

İddiaçılar 1, 2 və 5-ci bəndlərdə qeyd olunan sənədləri 2019-cu il 25 iyun tarixinə kimi Tender komissiyasına təqdim etməlidirlər. Həmin sənədlərdən hər hansı birini təqdim etməyən və ya ixtisas göstəricilərinə dair tələblərə uyğun olmayan iddiaçının tender təklifi qəbul olunmur.

İddiaçılar öz tender təkliflərini (imzalanmış, möhürlənmiş, ikiqat bağlama zərfdə) 2019-cu il 04 iyul saat 17.00-a qədər yuxarıda qeyd olunan ünvana təqdim etməlidirlər. Göstərilən tarixdən gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır. Tender təklifi zərfləri 2019-cu il 05 iyul tarixində saat 15.00-da "MİDA" MMC-də açılacaqdır.

Tender Komissiyası.

---

## BİLDİRİŞ

"Respublika" qəzetinin 11 aprel 2019-cu il və 24 aprel 2019-cu il tarixli saylarında Abşeron Rayon İcra Hakimiyyəti başçısının Xırdalan şəhər İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyinin dərc olunmuş tender elanında, tender 10 iyun 2019-cu il saat 12:00-da açılacaqdır, tender təklifi və bank zəmanəti 07 iyun 2019-cu il saat 17:00 tarixə kimi qəbul olunur, digər sənədlər isə 31 may 2019-cu il saat 17:00-a kimi təqdim olunmalıdır.

**Tender Komissiyası.**

---

Kənd Təsərrüfatı Nazirliyi, "Dövlət Aqrar Ticarət Şirkəti" MMC tərəfindən 06 may 2019-cu il tarixində "Kənddən Şəhərə" layihəsi üçün mövcud biznes modelin araşdırılması və yeni marketlər şəbəkəsi üçün strategiya haqqında konsultasiya və 1C Proqram təminatının satınalınması üzrə keçirilmiş kotirovka sorğusunda "USS" MMC qalib gəlmiş və həmin şirkətlə 16 may 2019-cu il tarixli 16-05/19 nömrəli satınalma müqaviləsi bağlanmışdır.

---

## BİLDİRİŞ

"Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətində 650 ədəd taxılyığan kombaynın, 100 ədəd pambıqyığan kombaynın, 500 ədəd traktorun icbari sığortalanması xidmətinin satınalınması üzrə kotirovka sorğusu keçirilir.

İştirak etmək istəyənlər əsas şərtlər toplusunu aşağıdakı ünvandan ala bilərlər:

Ünvan: Bakı şəhəri, Bakıxanov qəsəbəsi, B.Bünyadov-12.

Əlavə məlumat üçün əlaqə telefonu: (012) 425-62-18

Kotirovka sorğusu üçün bağlı zərflərin qəbulunun son tarixi 21.05.2019-cu il saat 18:00.

Bağlı zərflər 22.05.2019-cu il tarixdə saat 1500-da iddiaçının özünün və ya etibarnaməsi əsasında onun səlahiyyətli nümayəndəsinin iştirakı ilə Bakı şəhəri, Bakıxanov qəsəbəsi, B.Bünyadov küçəsi-12 ünvanında yerləşən "Aqrolizinq" ASC-nin konfrans zalında açılacaqdır.

**Tender Komissiyası.**

---

## BİLDİRİŞ

Goranboy Rayon İcra Hakimiyyəti Goranboy rayonunda ictimai işlərə cəlb edilmiş işlərin bərk inventarın satınalınması üçün təkliflər sorğusu elan edir.

Maraqlanan təşkilatlar 0222451024 telefon nömrəsinə və ya mail@goranboy-in.gov.az elektron ünvana müraciət edə bilərlər. Ünvan: Goranboy şəhəri, H.Əliyev pr. 1.

**Tender Komissiyası.**

---

## BİLDİRİŞ

Goranboy Rayon İcra Hakimiyyəti Goranboy rayonunda ictimai işlərə cəlb edilmiş işlərin yumşaq inventarın satınalınması üçün təkliflər sorğusu elan edir.

Maraqlanan təşkilatlar 0222451024 telefon nömrəsinə və ya mail@goranboy-in.gov.az elektron ünvana müraciət edə bilərlər. Ünvan: Goranboy şəhəri, H.Əliyev pr. 1

**Tender Komissiyası.**

## AMEA Molekulyar Biologiya və Biotexnologiyalar İnstitutu vakant vəzifələri tutmaq üçün

## MÜSABİQƏ ELAN EDİR

Vakant yerlər:

**1.** "Genomun quruluşu və ekspressiyası" laboratoriyası üzrə:
laboratoriya müdiri - 1 ştat vahidi
aparıcı elmi işçi - 2 ştat vahidi
böyük elmi işçi - 1 ştat vahidi

**2.** "Karbonun fotosintetik assimilyasiyasının enzimologiyası" laboratoriyası üzrə:
laboratoriya müdiri - 1 ştat vahidi
aparıcı elmi işçi - 2 ştat vahidi
böyük elmi işçi - 1 ştat vahidi

**3.** "Bitki biotexnologiyası" laboratoriyası üzrə:
laboratoriya müdiri - 1 ştat vahidi
aparıcı elmi işçi - 2 ştat vahidi

**4.** "Xloroplastların fotokimyası" laboratoriyası üzrə:
laboratoriya müdiri - 1 ştat vahidi
aparıcı elmi işçi - 1 ştat vahidi

**5.** "Bioinformatika" laboratoriyası üzrə:
laboratoriya müdiri - 1 ştat vahidi
aparıcı elmi işçi - 1 ştat vahidi
böyük elmi işçi - 1 ştat vahidi

**6.** "Hüceyrənin membran sistemləri" laboratoriyası üzrə:
laboratoriya müdiri - 1 ştat vahidi

**7.** "Bioadaptasiya" laboratoriyası üzrə:
aparıcı elmi işçi - 1 ştat vahidi

**8.** "Fotobioenergetika" laboratoriyası üzrə:
laboratoriya müdiri - 1 ştat vahidi

Müsabiqədə biologiya üzrə fəlsəfə və ya elmlər doktoru elmi dərəcəsi olan elmi işçilər və ya müvafiq ixtisaslar üzrə təcrübəli mütəxəssislər iştirak edə bilərlər.

Sənədlər müsabiqənin tələblərinə uyğun olaraq elan dərc edilən gündən etibarən 1 ay müddətində İnstitutun elmi katibinə təqdim edilmədilir.

**Ünvan:** *Az 1073, Bakı şəh., Mətbuat prospekti, 2A*
**Telefon:** *(+994 12) 510 89 41*
**Elektron poçtu:** *aliyeva-1965@inbox.ru.*

## Goranboy Rayon İcra Hakimiyyəti başçısının Goranboy Şəhər İnzibati Ərazi Dairəsi üzrə Nümayəndəliyi

## AÇIQ TENDERƏ DƏVƏT EDİR

**Tender 2 (iki) lot üzrə keçirilir:**
**Lot-1.** Yaşayış binalarının təmir işləri
**Lot-2.** Küçələrdə abadlıq işlərinin görülməsi.

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər lotlar üzrə aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Goranboy şəhəri, M.Məhərrəmov küçəsi 12 (əlaqələndirici şəxs: Rakif İmanov, telefon: 245-24-74) ünvanından ala bilərlər.

**İştirak haqqı**
**Lot 1 - 50 manat**
**Lot 2 - 100 manat**
*Hesab: AZ51AİİB32051019445000201150*
*VÖEN: 6100026981*
*Bank: Goranboy "Kapital Bank"*
*Kodu: 205109*
*VÖEN: 9900003611*
*M/H: Az37NABZ01350100000000001944*
*S.W.İ.F.T. BİKAİİBAZ 2 X*
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:
*-tenderdə iştirak etmək üçün yazılı müraciət;*
*-tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
*-tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
*-tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
*-Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
*-iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
*-iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
*-iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
*-iddiaçıların müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları;*
*-digər sənədlər.*

Sənədləri Azərbaycan dilində 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 28 iyun 2019-cu il saat 14:00 tarixinə qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə 8 iyul 2019-cu il saat 17:00-a qədər təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 9 iyul 2019-cu il saat 15:00 tarixində açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

**Tender Komissiyası.**

TƏKRAR

## Ağdaş Rayon İcra Hakimiyyəti 2019-cu ildə haqqı ödənilən ictimai işlərə cəlb edilmiş əlavə işçilərin xüsusi geyim, inventar və materiallarla təmin edilməsi məqsədilə

## AÇIQ TENDER ELAN EDİR

**Lot-1.** Haqqı ödənilən ictimai işlərə cəlb edilmiş əlavə işçilərin xüsusi geyim, inventar və materiallarla təmin edilməsi işləri.

Tender iştirakçılarına təklif edilir ki, "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq təkliflərini möhürlənmiş, imzalanmış, ikiqat bağlamada yazılı surətdə təqdim etsinlər.

Təkliflərin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: aşağı qiymət, yüksək keyfiyyət, müqavilənin vaxtında yerinə yetirilməsi, analoji işlərdə təcrübəsi, maliyyə və texniki imkanlara malik olmalıdır.

Tenderdə iştirak etmək istəyənlər lot üzrə aşağıda göstərilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Ağdaş şəhəri, Heydər Əliyev Xiyabanı-5, İnzibati bina, otaq-18 (əlaqələndirici şəxs: Kərimov Əli Fikrət oğlu, telefon: 02023-5-52-46) ala bilərlər.

**Lot-1 - 200,0 manat**
*Təşkilat: Ağdaş YXO*
*H.Hesabı: AZ27AİİB32051019446000201160*
*VÖEN: 3300028291*
*Bank: Kapital Bankın Ağdaş filialı*
*Kodu: 200606*
*VÖEN: 9900003611*
*Müxbir hesab:*
*AZ37NABZ01350100000000001944*
*S.W.İ.F.T BİK: AİİBAZ 2X*
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:
*- tenderdə iştirak etmək üçün yazılı müraciət;*
*- iddiaçıların iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
*- tender təklifi (zərflərin açıldığı tarixdən ən azı 30 bank günü qüvvədə olmalıdır);*
*- tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra 60 bank günü qüvvədə olmalıdır);*
*- iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
*- iddiaçıların son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti; (Forma-2);*
*- iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitlər;*
*- analoji işlərdə təcrübəsi, iddiaçının potensial texniki və kadr imkanları haqqında rəsmi məlumat;*
*- iddiaçıların tender təklifləri Azərbaycan Respublikasının dövlət dilində tərtib olunmalıdır.*

İddiaçılar tələb olunan sənədləri (tender təklifi, bank zəmanəti istisna olmaqla) möhürlü zərflərdə 2019-cu il iyun ayının 12-si saat 17:00-dək tender təklifi və bank zəmanətlərini isə ikiqat zərfdə və möhürlənmiş şəkildə 2019-cu il iyun ayının 25-də saat 17:00-dək Ağdaş şəhəri, Heydər Əliyev Xiyabanı-5, İnzibati bina, 18 ünvanda yerləşən Ağdaş Rayon İcra Hakimiyyətinin Tender Komissiyasına təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklif zərfləri Heydər Əliyev Xiyabanı-5, İnzibati bina, 18 ünvanda yerləşən Ağdaş Rayon İcra Hakimiyyətində 2019-cu il iyun ayının 27-si saat 11:00-da açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

**Tender Komissiyası.**

## BİLDİRİŞ

Azərbaycan Respublikasının Təhsil Nazirliyinin tabeliyində olan "3" nömrəli Bakı Peşə Məktəbi" mühafizə xidmətinin satınalınması məqsədilə kotirovka sorğusu keçirir. Kotirovka sorğusunda iştirak etmək üçün qiymət təklifini və digər zəruri sənədlər 22 may 2019-cu il saat 11:00-dək "3" nömrəli Bakı Peşə Məktəbi" Bakı şəhəri, Nəsimi rayonu, Feyzulla Qasımzadə küçəsi 96 ünvanına təqdim edilməlidir. Əlaqələndirici şəxs - Cəsərət Bayramov (telefon: 012 563 37 84). Zərflər 23 may 2019-cu il saat 11:00-da həmin ünvanda açılacaqdır.

## BİLDİRİŞ

Azərbaycan Respublikasının Təhsil Nazirliyinin tabeliyində olan "12 nömrəli Bakı Peşə Liseyi" mühafizə xidmətinin satınalınması məqsədilə kotirovka sorğusu keçirir. Kotirovka sorğusunda iştirak etmək üçün qiymət təklifini və digər zəruri sənədlər 22 may 2019-cu il saat 11:00-dək "12 nömrəli Bakı Peşə Liseyi" Bakı şəhəri, Sabunçu rayonu, Bakıxanov qəsəbəsi Mehmandarov küçəsi 4 ünvanına təqdim edilməlidir. Əlaqələndirici şəxs - Mehman Əliyev (telefon: 012 425 21 42). Zərflər 23 may 2019-cu il saat 11:00-da həmin ünvanda açılacaqdır.

## BİLDİRİŞ

Azərbaycan Respublikasının Təhsil Nazirliyinin tabeliyində olan "1 nömrəli Bakı Peşə Liseyi" mühafizə xidmətinin satınalınması məqsədilə kotirovka sorğusu keçirir. Kotirovka sorğusunda iştirak etmək üçün qiymət təklifini və digər zəruri sənədlər 22 may 2019-cu il saat 11:00-dək "1 nömrəli Bakı Peşə Liseyi" Bakı şəhəri, Sabunçu rayonu, Bakıxanov Qəsəbəsi Mehmandarov küçəsi 4 ünvanına təqdim edilməlidir. Əlaqələndirici şəxs - Ətirə Bədirova (telefon: 012 425 51 39). Zərflər 23 may 2019-cu il saat 11:00-da həmin ünvanda açılacaqdır.

## BİLDİRİŞ

Azərbaycan Respublikasının Təhsil Nazirliyinin tabeliyində olan "2 nömrəli Bakı Peşə Məktəbi" mühafizə xidmətinin satınalınması məqsədilə kotirovka sorğusu keçirir. Kotirovka sorğusunda iştirak etmək üçün qiymət təklifini və digər zəruri sənədlər 22 may 2019-cu il saat 11:00-dək "2 nömrəli Bakı Peşə Məktəbi" Bakı şəhəri, Nərimanov rayonu, Əhməd Rəcəbli küçəsi 5B ünvanına təqdim edilməlidir. Əlaqələndirici şəxs - Həsən Bayramov (telefon: 012 541 01 77). Zərflər 23 may 2019-cu il saat 11:00-da həmin ünvanda açılacaqdır.

## BİLDİRİŞ

Azərbaycan Respublikasının Təhsil Nazirliyinin tabeliyində olan "17 nömrəli Bakı Peşə Liseyi" mühafizə xidmətinin satınalınması məqsədilə kotirovka sorğusu keçirir. Kotirovka sorğusunda iştirak etmək üçün qiymət təklifini və digər zəruri sənədlər 22 may 2019-cu il saat 11:00-dək "17 nömrəli Bakı Peşə Liseyi" Bakı şəhəri, Sabunçu rayonu, Sabunçu rayonu Xəstəxanayanı küçəsi 26A ünvanına təqdim edilməlidir. Əlaqələndirici şəxs - Lalə Rəhimova (telefon: 012 450 15 81). Zərflər 23 may 2019-cu il saat 11:00-da həmin ünvanda açılacaqdır.

## BİLDİRİŞ

Azərbaycan Respublikasının Təhsil Nazirliyinin tabeliyində olan "ABŞERON BİNƏ PEŞƏ LİSEYİ" mühafizə xidmətinin satınalınması məqsədilə kotirovka sorğusu keçirir. Kotirovka sorğusunda iştirak etmək üçün qiymət təklifini və digər zəruri sənədlər 22 may 2019-cu il saat 11:00-dək "ABŞERON BİNƏ PEŞƏ LİSEYİ" Bakı şəhəri, Sabunçu rayonu Xəstəxanayanı küçəsi 26A ünvanına təqdim edilməlidir. Əlaqələndirici şəxs - Nurəddin Həsənov (telefon: 012 456 01 21). Zərflər 23 may 2019-cu il saat 11:00-da həmin ünvanda açılacaqdır.

## BİLDİRİŞ

Azərbaycan Respublikasının Təhsil Nazirliyinin tabeliyində olan "4 saylı Bakı Peşə Liseyi" mühafizə xidmətinin satınalınması məqsədilə kotirovka sorğusu keçirir. Kotirovka sorğusunda iştirak etmək üçün qiymət təklifini və digər zəruri sənədlər 22 may 2019-cu il saat 11:00-dək "4 saylı Bakı Peşə Liseyi" Bakı şəhəri, Nizami rayonu, İ.Məmmədov küçəsi 148 ünvanına təqdim edilməlidir. Əlaqələndirici şəxs - Cavid Rzayev (telefon: 012 374 27 60). Zərflər 23 may 2019-cu il saat 11:00-da həmin ünvanda açılacaqdır.

## BİLDİRİŞ

Azərbaycan Respublikasının Təhsil Nazirliyinin tabeliyində olan "14 saylı Bakı Peşə Liseyi" mühafizə xidmətinin satınalınması məqsədilə kotirovka sorğusu keçirir. Kotirovka sorğusunda iştirak etmək üçün qiymət təklifini və digər zəruri sənədlər 22 may 2019-cu il saat 11:00-dək "14 saylı Bakı Peşə Liseyi" Bakı şəhəri, Nizami rayonu, İ.Məmmədov küçəsi 148 ünvanına təqdim edilməlidir. Əlaqələndirici şəxs - Rəna Məmmədova (telefon: 012 374 64 14). Zərflər 23 may 2019-cu il saat 11:00-da həmin ünvanda açılacaqdır.

## BİLDİRİŞ

Azərbaycan Respublikasının Təhsil Nazirliyinin tabeliyində olan "18 nömrəli Bakı Peşə Liseyi" mühafizə xidmətinin satınalınması məqsədilə kotirovka sorğusu keçirir. Kotirovka sorğusunda iştirak etmək üçün qiymət təklifini və digər zəruri sənədlər 22 may 2019-cu il saat 11:00-dək "18 nömrəli Bakı Peşə Liseyi" Bakı şəhəri, Binəqədi rayonu, C.Xəndan küçəsi 17 A ünvanında təqdim edilməlidir. Əlaqələndirici şəxs - Cəsərət Bayramov (telefon: 012 563 37 84). Zərflər 23 may 2019-cu il saat 11:00-da həmin ünvanda açılacaqdır.

TƏKRAR

## T.İsmayılov adına Uşaq-Gənclər Yaradıcılıq Sarayı

## AÇIQ TENDER ELAN EDİR

**Tender 1 (bir) lot üzrə keçirilir:**
**Lot-1.** Sair xərclər

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi texniki və maliyyə imkanlarına malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyənlər lotlar üzrə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu ala bilərlər.

**Ünvan: Bakı şəhəri, İçərişəhər, Qoşa-Qala 41-45**
**Lot üzrə iştirak haqqı: 120 (yüz iyirmi) manat**
**Əlaqələndirici şəxs: Soltanov İlqar**
**Telefon: 492-88-07; (050) 628-04-24.**

İddiaçılar iştirak haqqını aşağıdakı hesaba köçürməlidirlər:
*Azərbaycan Beynəlxalq Bankı*
*ABB Səbail filialı*
*Kod 805056*
*Valyuta AZN*
*VÖEN 9900001881*
*Müxbir hesabı:*
*AZ03NABZ01350100000000002944*
*SWİFT: İBAZAZ2X*
*Hesablaşma hesabı*
*AZ81İBAZ34501789440000107209*
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:
*—tenderdə iştirak etmək üçün ərizə;*
*—tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
*—tender təklifi (zərflərin açıldığı gündən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
*—tender təklifi qiymətinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı gündən ən azı 60 bank günü müddətində qüvvədə olmalıdır);*
*—Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
*—iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
*—iddiaçının son iki il ərzində maliyyə vəziyyəti (dövriyyəsi) haqqında bank arayışı;*
*—iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri, mənfəət vergisinin bəyannaməsi;*
*—iddiaçının müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatı, tikinti-quraşdırma və xüsusi torpaq işləri ilə bağlı lisenziyasının vacibliyi.*

Sənədlər Azərbaycan dilində 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır. İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri tender təklifi və bank zəmanəti istisna olmaqla 18 iyun 2019-cu il saat 17:00-dək, iş qrafiki, tender təklifi və bank zəmanətlərini isə möhürlənmiş ikiqat zərfdə 27 iyun 2019-cu il saat 17:00-a qədər təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

Təklif zərfləri 28 iyun 2019-cu il tarixdə, saat 12:00-da yuxarıda göstərilən ünvanda açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

**Tender Komissiyası.**

## ELAN

**Detal Alüminium MMC-nin kreditorlarının nəzərinə!**

Detal Alüminium MMC-nin (VÖEN N2300812001, hüquqi ünvan: Gəncə şəhəri, Yevlax şosesi-53) iflas edilməsinə dair işə 29 may 2019-cu il tarixində, Gəncə Şəhəri İnzibati-İqtisad Məhkəməsinin binasında Gəncə şəhəri, Heydər Əliyev prospekti105 ünvanında baxılacaqdır.

**Detal Alüminium MMC-nin rəhbərliyi.**

## "Azərbaycan Dəmir Yolları" QSC HSX-nin 2 saylı Bakı Dəmir Yol Poliklinikası MMC. (VÖEN: 1000 481501)

## KOTİROVKA SORĞUSU ELAN EDİR

**1.** Dərman və sarğı ləvazımatları və materiallarının alınması.

**Tender Komissiyası.**

## "Azərbaycan Dəmir Yolları" QSC HSX-nin 2 saylı Bakı Dəmir Yol Poliklinikası MMC. (VÖEN: 1000 481501)

## KOTİROVKA SORĞUSU ELAN EDİR

**1.** Cari təmir işlərinin görülməsi.

**Tender Komissiyası.**

## Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi "Dövlət Aqrar Ticarət Şirkəti" MMC

## BİLDİRİŞ

Reklam, dizayn və marketinq işlərinin satınalınması ilə əlaqədar birinci 14 mart 2019-cu il, təkrar 04 aprel 2019-cu il və sənədlərin son təqdim edilmə müddətinin uzadılması ilə əlaqədar olaraq 23 aprel 2019-cu il tarixlərində "Respublika" qəzeti və e-tender.gov.az saytında elan olunmuş açıq tender müsabiqəsi yetərsay iştirakçı olmaması səbəbindən ləğv olunur.

**TENDER KOMİSSİYASI.**

## BİLDİRİŞ

"Güzəştli mənzil" sisteminə əqli mülkiyyət hüquqlarının qeydiyyatı (müəlliflik hüquqları, texniki həllin və sistemin patentləşdirilməsi) üzrə məsləhət xidmətlərinin satın alınması üzrə 2019-cu ilin 22 aprel tarixində keçirilmiş açıq tenderin nəticələrinə əsasən "Ernst & Yanq Holdings (SiAyEs) Bi.Vi." Şirkətinin Azərbaycan Respublikasındakı Filialı qalib müəyyən edilmiş və müvafiq satınalma müqaviləsi bağlanılmışdır.

**Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyi.**

Mahmudov Nəsib Mahmud oğluna məxsus Xaçmaz şəhərində yerləşən Baytarlıq aptekinin 51 nömrəli Qeydiyyat vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Kazımov Sahib İman oğlunun adına Bakı Dövlət Universitetinin mexanika riyaziyyat fakültəsinin (II kurs tələbəsi) tərəfindən verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Beyləqan rayonu, Örən Qala kənd sakini mərhum Usubov Astan Namaz oğlu və ailə üzvlərinin xüsusi mülkiyyətində olan həmin kənddə yerləşən 1,20 ha torpaq sahəsinin torpağın mülkiyyətə verilməsinə dair JN 399 (KOD 60710018 nömrəli) Dövlət Aktı itdiyi üçün etibarsız sayılır.

Lənkəran rayon aqrar islahat komissiyasının 20 dekabr 1997-ci il tarixli 12 nömrəli qərarı ilə Boladi kənd sakini Cəfərova (Cavadova) Zərifə Əşrəf qızına verilmiş Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə (JN 1088 A; KOD 80200028) itdiyi üçün etibarsız sayılır.

Beyləqan rayonu, Şəfəq qəsəbə sakini olmuş mərhum Məmmədov İspəndiyar Məmməd oğlunun və ailə üzvlərinin xüsusi mülkiyyətində olan daşınmaz əmlaka (fərdi yaşayış binası və həyətyanı sahə) verilmiş 0376935 N-li RX seriyalı çıxarış və torpaq sahəsinin planı və ölçüsü sənədi itdiyi üçün etibarsız sayılır.

Cəlalov Məmməd Bilal oğluna Yevlax rayonu Havarlı kəndində yerləşən torpaq sahəsinə verilmiş dövlət aktı JN: 236, Kod 90105018 itdiyi üçün etibarsız sayılır.

Kamilova Nigar Mirnağı qızının adına,Bakı şəhəri, Xəzər rayonu, Türkan qəsəbəsi b/y-nin 1 sektorda 2 saylı bağ sahəsinin RX N090 5509 HDQHDƏDR çıxarış itdiyi üçün etibarsız sayılır.

Nəsirov Əkbər Qamboy oğluna məxsus olan Bakı şəhəri, Xəzər rayonu, Türkan qəsəbəsində yerləşən TİI-nin b/y-nin 29 saylı 0.05 ha bağ sahəsinə verilmiş 09.08.2012-ci il tarixli 1112064840 qeydiyyat nömrəli çıxarış itdiyi üçün etibarsız sayılır.

Babayeva Məryəm Ələmdar qızının adına Hüquqların Dövlət Qeydiyyatı haqqında Daşınmaz Əmlakın Dövlət Reyestri tərəfindən verilən evin Qeydiyyat Vəsiqəsi itdiyi üçün etibarsız sayılır. Ünvan: Bakı şəhəri, Suraxanı r-nu, Əmircan qəsəbəsi, Neftçi küçəsi ev-40.

AzMİU-nun nəzdindəki İnşaat Kolleci tərəfindən Qasımlı Nazlı Ruslan qızının adına verilmiş 01/0766 saylı tələbə bileti itdiyi üçün etibarsız sayılır.

AzMİU-nun nəzdindəki İnşaat Kolleci tərəfindən Qulusoy Nurlan Hüseyn oğlunun adına verilmiş 01/0458 saylı tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Gəncə şəhər Dezinfeksiya Stansiyası, Cəfərova Səlbi Nadir qızının adına olan VÖEN 2300231101 itdiyi üçün etibarsız sayılır.

Azərbaycan Respublikası Əmlak Məsələləri Dövlət Komitəsinin yanında Daşınmaz Əmlakın Dövlət Reyestri Xidməti tərəfindən, Hacıyeva Zülfiyyə Əhməd qızının adına verilmiş, Bakı şəhəri, Xəzər rayonu, Şüvələn bağ massivi, 59 saylı bağ sahəsi, 0136716 №-li ÇIXARIŞ itdiyi üçün etibarsız sayılır.

İsmayıllı rayonununCülyan kənd sakini Nəzərov Hidayət Abdul oğluna fərdi yaşayış evinə mülkiyyət hüququna görə verilmiş, reyestr nömrəsi 269 olan Qeydiyyat vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Baş redaktor
Teymur ƏHMƏDOV

● Redaksiyanın telefonları:
İqtisadiyyat və islahatlar redaksiyası: **539-95-51;**
Siyasət, ictimai problemlər və analitik təhlil redaksiyası: **538-55-20;**
Beynəlxalq əlaqələr, dövlət quruculuğu və hüquq redaksiyası: **539-26-18;**
Humanitar siyasət redaksiyası: **538-25-70;**
Xəbərlər redaksiyası: **538-61-02;**
İctimai rəy və sosial problemlər redaksiyası: **539-95-51; 538-43-41 tel/faks;**
Qəbul otağı: **538-25-70;**
Katiblik: **538-25-70;**
Reklam və elan xidməti: **441-20-23.**




● Redaksiyanın ünvanı:
AZ1073, Bakı
Mətbuat prospekti, 529-cu məhəllə, VII mərtəbə.
**E-mail:** resp@azdata.net
www.respublica-news.az
*"Respublika" qəzetinin kompyuter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap olunmuşdur.*
Qeydiyyat № 7.

İndeks 0240
Tiraj 4292
Sifariş 023
Qəzetin satış qiyməti 40 qəpik

Məsul növbətçi
Kamal İBADOV

● Çapa imzalanmışdır
17.05.2019